Günəş Şərqdən doğur!

№ 12 (5293), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 22 yanvar 2021-ci il (cümə)




## Koronavirusdan ölüm halı azaldı

Azərbaycanda daha 770 nəfər sağalıb, 218 nəfər yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 218 yeni yoluxma faktı qeydə alınıb, 770 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Bakı metrosunun ali məktəblərlə eyni vaxta açılması gözlənilir



Azərbaycan hökumətində orta ümumtəhsil müəssisələri ilə yanaşı, ali təhsil müəssisələrinin də açılması ilə bağlı müzakirələr gedir. Universitetlər fevralın 15-dən açıla bilər.

(Səh.9)

Günün içindən...




## Azərbaycan və Fransa XİN başçıları telefonla danışıblar

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Fransa Respublikasının xarici işlər naziri Jan İv Lö Drian arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, nazirlər bölgədəki son vəziyyət, o cümlədən Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatların icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

(səh.5)

## Fevralda əfv fərmanı gözlənilir



Novella Cəfəroğlu: "Vətən müharibəsinin başlaması əfv və amnistiya məsələsini bir qədər arxa plana keçirdi"

(səh.9)

# Xəzərdə anlaşma



## Azərbaycanla Türkmənistan arasında "Dostluq" yatağının birgə işlənməsinə dair imzalanan Memorandum tarixi hadisədir

Dünən Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib.

(səh.5)

## Sevinməyə dəyməz

Pandemiya gələcəkdə uşaqların görmə qabiliyyətinə təsir göstərəcək

(səh.9)



## Məktəblərin fevralın 1-də açılmasına hazırlıq görülür

İbtidai sinif şagirdləri növbəli şəkildə, həftədə iki-üç dəfə dərsə gedəcək

(səh.7)

## Zərif Azərbaycandan əliboş qayıdacaq

"Rəsmi Tehran hələ də çalışır ki, münaqişə olsun"

(səh.3)

## Ermənilərin Kəlbəcərə səpələnməsi təhlükəsizlik baxımından risklidir

"Bir müddət sonra istənilən təxribata əl ata bilərlər"

(səh.8)

## Şəffaflıq əsas şərtdir

Fürsətcil insanlar qazilərin, yaralıların adından istifadə edirlər

(səh.12)



## Bayden daha iddialı siyasət yeridəcək

ABŞ yenidən super güc kimi meydanlara qayıtmağı düşünür

(səh.4)

## "Azərbaycan qalibdir..."

"Bakı sülhməramlıların fəaliyyətini izləməli və təhlil etməlidir"

(səh.7)



# “Xəzər mehriban qonşuluq, əməkdaşlıq dənizidir”



“Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır". Bunu Prezident İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovla videokonfrans formatında görüşdə bildirib. Dövlət başçısı deyib ki, ölkələrimiz arasında bütün səviyyələrdə, ilk növbədə, Prezidentlər səviyyəsində sıx siyasi qarşılıqlı fəaliyyət olmasaydı, bugünkü sənədin imzalanması mümkün olmazdı:

“Sizinlə birlikdə səy göstərmişik ki, ölkələrimizin müvafiq strukturları məhz Prezidentlərin onlara göstərdiyi kimi - əməkdaşlıq, dostluq, qarşılıqlı dəstək və qarşılıqlı maraqların düzgün başa düşülməsi ruhunda işləsinlər. Ona görə də mən bugünkü sənədi tarixi sənəd adlandırardım”. Prezident qeyd edib ki, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək: ”Son illərdə ölkələrimiz arasında münasibətlər çox müsbət dinamikaya malikdir. Ali səviyyədə qarşılıqlı səfərlərimizin xronologiyasına nəzər salmaq kifayətdir. Son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Müqayisə üçün deyim ki, bizim qarşılıqlı münasibətlərimizin bütün tarixi ərzində 100-dən çox sənəd imzalanıb, onların yarısı son 3 ildə imzalanıb. Ən sevindirici hal ondan ibarətdir ki, bütün bu sənədlər, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə etdiyimiz razılaşmalar yerinə yetirilir. Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq”.




**Prezident İlham Əliyev:**
*“İmzalanan sənəd xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək”*

**Qurbanqulu Berdiməhəmmədov:**
*“Yatağı “Dostluq” adlandırmaq barədə bizim ümumi qərarımız dərin rəmzi məna daşıyır”*

**“Azərbaycanla Türkmənistan arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq yüksək səviyyəyə çatacaq”**

**Prezident bildirib ki, Azərbaycanla Türkmənistan arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq yüksək səviyyəyə çatacaq:** ”Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq. Türkmənistanın nəqliyyat-logistika potensialının möhkəmlənməsi işində Sizin şəxsi xidmətlərinizi xüsusi qeyd etmək istərdim. Ona görə ki, tranzitlə bağlı məsələlərdə qonşu ölkələrlə qarşılıqlı fəaliyyət olmasa, nəticə əldə etmək mümkün deyil. Bu gün bizim nəqliyyat-logistika infrastrukturunun yüksək səviyyəsini qeyd etməyimiz Türkmənistanın və Azərbaycanın bu sahədə məqsədyönlü fəaliyyətinə dəlalət edir. Bu, bizim regionda və hətta bu regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələr üçün çox böyük imkanlar yaradır. Ona görə ki, nəqliyyat sferası da enerji sferası kimi, ölkələri birləşdirir. Bir daha demək istəyirəm, bu gün bizim bu Memorandumu imzalamağımız əlamətdar hadisədir, onun müsbət nəticələri olacaq”.

**“Bu əməkdaşlıq konkret nəticəyə yönəlib”**

**Dövlət başçısı vurğulayıb ki, Azərbaycan, Türkmənistan və Türkiyə arasında, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatı artıq mövcuddur:** ”Bu əməkdaşlıq konkret nəticəyə, biznes fəaliyyəti, iri infrastruktur layihələrinin reallaşdırılması üçün daha əlverişli şərait yaradılmasına yönəlib. Bu gün Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və daha sonra digər ölkələrə çatdırılmasını təmin edən dəmir yolu məhz Türkmənistanın qonşu Əfqanıstanda investisiyalara dair müdrik siyasəti nəticəsində inşa edilib. Buna görə də bu gün qeyd etmək istərdim ki, məhz region ölkələri ilə əməkdaşlığa bizim ümumi yanaşmalarımız və həm bizim üçün, həm də qonşularımız üçün vacib məsələlərin həlli tamamilə yeni reallıqlar yaradır”. Dövlət başçısı vurğulayıb ki, Xəzər mehriban qonşuluq dənizi, əməkdaşlıq dənizidir: ”Əminəm ki, Xəzər ölkələrimiz arasında təbii sərhəd olduğuna baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək. Fürsətdən istifadə edib Sizdən xahiş etmək istərdim ki, qardaş Türkmənistan xalqına ən xoş arzularımı, firavanlıq, inkişaf, sülh və rifah diləklərimi çatdırasınız”.

**“Xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırırlar”**

**Ölkə rəhbəri vurğulayıb ki, xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırırlar:** ”Bu gün Türkmənistan və Azərbaycan nisbətən gənc müstəqil dövlətlərdir. Bizim müstəqil dövlətlərə çevrilməyimizdən hələ 30 il keçməyib, lakin bu illər ərzində çox böyük uğurlar qazana bilmişik. Məsələn, bu gün inamla irəliləyirik, sosial rifah, iqtisadi inkişaf, qlobal transmilli layihələr sahəsində çox mühüm məsələləri həll edirik. Ölkələrimiz investisiyalar üçün açıqdır. Xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırırlar. Ona görə ki, əmindirlər, onların vəsaitləri qorunacaq, bizim ölkələrdə siyasi sabitliyə əmindirlər, o da bu gün ən mühüm inkişaf amilidir. Sabitlik olmadan inkişaf mümkün deyil. Sabitlik tərəqqiyə, rifaha, investisiyalara, ən iri beynəlxalq şirkətlərin diqqətinə və bununla da ölkələrin beynəlxalq aləmdə rolunun, onların təsirinin möhkəmlənməsinə gətirib çıxarır. Bu gün ölkələrimizin həm tarixi, həm də mədəni baxımdan oxşarlığı, ortaq köklərimiz, ortaq dilimiz, ortaq dinimiz barədə danışarkən, biz, əlbəttə, bütün bu müsbət cəhətləri belə səmərəli əməkdaşlığa transformasiya etmişik. Beləliklə, bu gün biz, sadəcə, Xəzərdə bir yataq haqqında Memorandum imzalamırıq, bu gün biz münasibətlərimizin gələcək uğurlu inkişafında çox mühüm addım atırıq”.

**“Türkmənistan və Azərbaycan beynəlxalq arenada tam əsasla müstəqil xarici və daxili siyasət barədə danışa bilən ölkələrdir”**

**Prezident vurğulayıb ki, Türkmənistan və Azərbaycan beynəlxalq arenada tam əsasla müstəqil xarici və daxili siyasət barədə danışa bilən ölkələrdir:** ”Ölkələrimiz özlərini tamamilə təmin edən ölkələrdir. Onlar istər beynəlxalq kreditlərdən, istər xarici köməkdən, istərsə də xarici təsirin hər hansı başqa formalarından və növlərindən asılı deyil. Bu ölkələr öz milli, mənəvi, əxlaqi ənənələrinə möhkəm sadiqdirlər. Bu, bizi irəliyə aparan əsasdır. Əminəm ki, bugünkü imzalanma mərasimi regional əməkdaşlığın inkişafı üçün çox müsbət səmərəyə malik olacaq. Bu gün bizim münasibətlərimizdə tarixi gündür. Əminəm ki, bugünkü imzalanma mərasimi regional əməkdaşlığın inkişafı üçün çox müsbət səmərəyə malik olacaq. Siz artıq qeyd etdiniz ki, Xəzəryanı ölkələrin əməkdaşlığı da çox dinamik, qarşılıqlı anlaşma və qarşılıqlı dəstək ruhunda inkişaf edir, bunun nəticəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb”.

**“Biz Azərbaycanla birlikdə böyük, mühüm və çox perspektivli bir layihəyə başlayırıq”**

**Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov da deyib ki, Azərbaycanla birlikdə böyük, mühüm və çox perspektivli bir layihə başlayır:** ”Nəqliyyat sferası da bizim tərəfdaşlığımızın mühüm sahəsidir. Türkmənistan və Azərbaycan bu gün əfqanıstanlı, gürcüstanlı və türkiyəli tərəfdaşları ilə birlikdə Asiya ilə Avropa arasında ən mühüm kontinental magistrala çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli fəaliyyəti üzərində fəal iş aparır”. Q. Berdiməhəmmədov qeyd edib ki, Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi-Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarlarından biridir: ”Əminəm ki, ”Dostluq” yatağında Türkmənistanın və Azərbaycanın birgə işi uğurlu və səmərəli olacaq. Bu tarixi sənədi dəstəklədiyinizə, xalqlarımız və dövlətlərimiz arasında dostluğun, qardaşlığın və əməkdaşlığın inkişafı və möhkəmlənməsi işinə böyük diqqətinizə və şəxsi töhfənizə görə Sizə səmimi qəlbdən təşəkkür edirəm. Sizi bugünkü əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə möhkəm cansağlığı, dövləti və siyasi fəaliyyətinizdə yeni uğurlar arzu edirəm. Həmçinin bütün Azərbaycan xalqına sülh, firavanlıq və rifah arzularımı çatdırmağınızı Sizdən xahiş edirəm”.

**“İkitərəfli əməkdaşlıq imkanlarını ətraflı müzakirə və təhlil etdik”**

**Q.Berdiməhəmmədov bəyan edib ki, yatağı ”Dostluq” adlandırmaq barədə bizim ümumi qərarımız dərin rəmzi məna daşıyır:** “Ölkələrimiz tərəfindən aparılmış çoxillik böyük işin nəticəsi olan bu sənəd enerji sahəsində əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, iki nəhəng enerji dövlətinin çox zəngin birgə potensialının üzə çıxarılmasına, Xəzər dənizi regionunda davamlı energetikanın, geniş qarşılıqlı faydalı və beynəlxalq tərəfdaşlığın inkişafı üçün ən əlverişli şərait yaradılmasına yönəlib. Məlum olduğu kimi, 2020-ci ilin mart ayında mənim Bakıya rəsmi səfərim zamanı Sizinlə birlikdə Xəzər dənizində energetika sahəsində ikitərəfli əməkdaşlıq imkanlarını ətraflı müzakirə və təhlil etdik. Nəticədə Xəzərdə iri karbohidrogen resursları yataqlarından birində birgə iş barədə razılaşma əldə edildi. Həm də vurğulandı ki, həmin fəaliyyətin əsas prinsipləri həmrəylik, qarşılıqlı hörmət və dəstək olacaq. Buna görə də həmin yatağı ”Dostluq” adlandırmaq barədə bizim ümumi qərarımız dərin rəmzi məna daşıyır. Şübhə yoxdur ki, yuxarıda qeyd etdiyim razılaşmalar, qəbul olunmuş qərarlar bizim münasibətlərimizin, dövlətlərimizin tarixinə həqiqi mehriban qonşuluğun, məsuliyyətin və uzaqgörənliyin, hüquq bərabərliyinin və bir-birinin mənafelərini nəzərə almağın parlaq nümunəsi kimi daxil olacaq. Onlar, əlbəttə, Türkmənistan və Azərbaycan xalqları, həmçinin bizim dövlətlərimiz arasında dostluğu və qardaşlığı daha da möhkəmlədəcək”.

**İsmayıl**

# Zərif Azərbaycandan əliboş qayıdacaq

## "Rəsmi Tehran hələ də çalışır ki, münaqişə olsun"

**İran Xarici işlər naziri Məhəmməd Cavad Zərif yanvarın 24-də Azərbaycana səfər edəcək. Bu barədə diplomatik mənbələrdən bildirilib. İranlı nazir səfər çərçivəsində Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov və Baş nazirin müavini Şahin Mustafayevlə görüşərək danışıqlar aparacaq.**



Səfər çərçivəsində Qarabağın işğaldan azad olunmasından sonra bölgədə yaranan yeni əməkdaşlıqlar və İran şirkətlərinin Qarabağın bərpasında iştirakı ilə əlaqədar təkliflər müzakirəyə çıxarılacaq.

İran xarici işlər naziri, həmçinin Azərbaycan, İran və Rusiya üçtərəfli əməkdaşlıqlarla bağlı Azərbaycan rəsmiləri ilə danışıqlar aparacaq.

**Məlum səfərlə bağlı "Şərq"ə danışan AXCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə bildirib ki, iranlı nazirin Cənubi Qafqaz regionuna səfəri əsasən siyasi-iqtisadi əməkdaşlığı özündə ehtiva edir:**

"İran çalışır ki, regionda Türkiyənin artan siyasi-iqtisadi və hərbi mövqeyinə qarşı siyasətini ortaya qoysun. Bu baxımdan səfər çərçivəsində ciddi danışıqlar gedəcək. Zərif Tehrana əliboş qayıtmamaq üçün İranın regionda siyasi-iqtisadi mövqeyinin yaxın perspektivdə güclənməsi üçün maksimum dərəcədə razılaşma əldə etməyə çalışacaq".

Politoloq vurğulayıb ki, Zərifin Qarabağla əlaqəli mövqeyi ziddiyyətlidir: "Tehran hələ də münaqişədən bəhs edir. İran Xarici işlər naziri bilməlidir ki, Azərbaycan və Ermənistan arasında Qarabağ münaqişəsi bitib. Zərif münaqişə sözündən istifadə edib. Bu minvalla onun Azərbaycanla danışıqlarda Qarabağda tikinti işlərində iştirak istəyi qəbul edilməyəcək. Rəsmi Tehran hələ də çalışır ki, münaqişə olsun və iki icma arasında sülhün əldə edilməsi reallaşmasın".

**M.Əsədullazadənin fikrincə, İran XİN rəhbərinin Azərbaycana səfəri öncəsi münaqişənin davam etdiyini söyləməsi bu ölkənin səmimi bir qonşu olmadığını göstərir:** "İran tərəfinin bu səfərdən müsbət nəticə əldə edəcəyi mümkün görünmür. Təəssüf ki, Tehran öz ampluasındadır. Regionda sülhə, təhlükəsizliyə aparan siyasətə dəstək vermək əvəzinə, Ermənistan-Azərbaycan arasında münaqişədən bəhs edirlər. Düşünürəm ki, bu səfər Azərbaycan üçün xüsusi əhəmiyyət daşımayacaq.

Azərbaycan Türkiyə və Pakistan birliyi yeni bir siyasi nizam formalaşdırır".

**Yeganə Bayramova**



## "Dostluq" layihəsi...

### Azərbaycanın neft-kimya sənayesinin inkişafına xidmət edəcək

**Azərbaycanla Türkmənistan arasında bu gün əldə olunan "Dostluq" neft-qaz yatağının birgə işlənməsi barədə memorandum vacib səhifədir.**

Bunu Trend-ə ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza deyib.

Onun sözlərinə görə, bu saziş hər iki ölkəyə təbii qaz hasilatı sahəsində əməkdaşlıq üçün yol açır:

"Bu saziş həm də Türkmənistan qazının Xəzər dənizi vasitəsilə Azərbaycana və digər ölkələrə tranzitinə yol açacaq. Türkmənistan üçün etibarlı bazarlara çıxışı təmin etmək çox vacibdir".

M.Brayza əlavə edib ki, Türkmənistandan yeni qaz həcmləri Azərbaycanda, eləcə də Türkiyədə təbii bazara malikdir:

"Yeni türkmən qazı Azərbaycanın neft-kimya sənayesini genişləndirməyə imkan verəcək. Bir sözlə, bu, daha geniş əməkdaşlığa yol açan vacib sənəddir".



## Moskvada Rusiya XİN başçısı ilə ATƏT sədri arasında görüş keçiriləcək

### Rusiya-İsveç münasibətləri müzakirə ediləəcək

**Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrov və onun iranlı həmkarı Məhəmməd Cavad Zərif arasında görüş keçiriləcək.**

APA-nın Moskva müxbirinin xəbərinə görə, bu barədə bu gün Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova ənənəvi brifinqdə bildirib.

O, S. Lavrov və Cavad Zərif arasında görüşün yanvarın 26-da baş tutacağını vurğulayıb.

M. Zaxarova İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin fevralın 2-də Rusiya paytaxtına səfər edəcəyini də qeyd edib: "Sergey Lavrov isveçli həmkarı ilə görüşdə ATƏT daxili məsələləri, eyni zamanda Rusiya-İsveç münasibətlərini müzakirə edəcək".

# Əvvəla ortaq dillə bağlı məsələ həll olunmalıdır

## "Mərkəzi Asiyanın bəzi türk dövlətləri proseslərə tam hazır deyillər"

Türkmənistanla Azərbaycan arasında Xəzər dənizində "Dostluq" yatağının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Memorandum imzalanıb. Azərbaycan və Türkmənistan prezidentləri İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədovun video-formatda qatıldıqları imzalanma mərasimində sənədə Xarici işlər naziri Ceyhun Bayramov və həmkarı Rəşid Meredov imza atıblar.



## "Əlaqələrin qurulmasına əngəl yaradan əsas faktor Rusiya amilidir"

Bununla Türkmənistanla Azərbaycan arasında uzun müddətdir mübahisə doğuran məsələ həllini tapıb. Xatırladaq ki, bu zamana qədər dəniz sərhədində yerləşən yatağı Türkmənistan "Sərdar", Azərbaycan isə "Kəpəz" adlandırırdı. Hər iki tərəf yatağın yerləşdiyi bölgəni öz dəniz ərazisi hesab edirdi. Yeni imzalanan sənədlə ortaq məxrəcə gəlindi və yatağa ortaq ad verildi - "Dostluq". Artıq yataqdan birgə istifadə olunacaq. Məlum məsələdir ki, İran və Rusiya türkmən qazının Xəzər dənizinin dibi ilə Azərbaycan üzərindən Avropaya ixracında maraqlı deyil. Ona görə də "TransXəzər" boru kəmərinin tikintisinə mane olurlar. Lakin iki ölkənin anlaşması gələcəkdə ortaq enerji kəmərlərinin çəkilməsinə imkan verəcək. Həmçinin, Türkiyə, Azərbaycan, Pakistan, Türkmənistan və Əfqanıstanı birləşdirən Lapis-Lazuri nəqliyyat dəhlizinin açılması digər layihələrin də siyasi reallaşmasına gətirəcək. Bir sözlə, Türkmənistanın Azərbaycanla Xəzər dənizində birgə fəaliyyəti, digər Orta Asiya ölkələri ilə siyasi-iqtisadi əlaqələrin inkişafı yeni mərhələnin başlanğıcı deməkdir.

**Tarixi anlaşma ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, mübahisəli karbohidrogen yataqların həllini tapması regionda birgə neft-qaz istismarı üçün münbit şərait yaradacaq.** Ekspertin sözlərinə görə, bütün hallarda hədəf türk dövlətlərinin birliyini möhkəmləndirməkdir: "Məlumdur ki, sıx iqtisadi bağlılıq olmazsa, real birlikdən, həmrəylikdən danışmaq sadəcə zaman itkisidir. İndiyə qədər türk dövlətləri daha çox mədəni əlaqələrə diqqət yetiriblər. Düzdür, bu sahədə xeyli uğurlar əldə olunsa da, konkret addımlar atılmayıb. Ən əsası isə ortaq dillə bağlı nəticə əldə olunmayıb. Mərkəzi Asiyanın türk dövlətləri bəzi proseslərə tam hazır deyillər. Ona görə də münasibətlər daha da sıxlaşmalıdır. Siyasi münasibətlər də arzuolunan səviyyədə deyil. Əlaqələrin qurulmasına əngəl yaradan əsas faktor Rusiya amilidir. Mövcud şəraitdə Azərbaycan öz imkanlarından maksimum yararlanmağa çalışır və Türkiyə ilə eyni siyasi xətt üzrə hərəkət edir. Bu istiqamətdə səyləri davam etdirməliyik".

**Politoloq diqqətə çatdırıb ki, XİN başçısı Ceyhun Bayramov regionun türk respublikaları ilə görüşlərdə daha çox TAP qaz kəmərinin təminatı ilə bağlı danışıqlar aparacaq:** "Rusiya müxalifətçisi A.Navalnının həbsi Moskvaya qarşı ciddi sanksiyaları gündəmə gətirib. Avropa Parlamenti "Şimal Axını-2" layihəsini dayandırmaq üçün Avropa İttifaqına müraciət etməyi düşünür. ABŞ-ın yeni prezidenti Cozef Bayden Rusiyaya qarşı sanksiyaları gücləndirmək niyyətindədir. Bütün bunlar ilk növbədə Rusiyanın qaz idxalına təsir edəcək. Soyuq qış aylarında Avropaya çatdırılacaq qazın həcminin azalması isə Azərbaycan üçün yeni imkanlar açacaq. Ona görə də SOCAR yeni qaz yataqlarının işlənməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirməlidir. Paralel olaraq Mərkəzi Asiyanın türk ölkələri ilə hərtərəfli əməkdaşlığı daha da genişləndirməlidir".

**İsmayıl Qocayev**

# “Qarabağ yenidən canlanacaq, cənnət olacaq”

## Türkiyə vətəndaşları Prezidentin Azərbaycanı güclü dövlətə çevirdiyinə şahiddirlər

Azərbaycan və Türkiyə vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:

**Türkiyə, İstanbul şəhərindən Abdüssamet Bahadır yazır:** Hörmətli cənab Prezident. Sizi və bütün Azərbaycan xalqını Qarabağın azad edilməsi uğrunda apardığınız Vətən müharibəsində qazandığınız böyük Zəfər münasibətilə cani-könüldən təbrik edirəm. Can Azərbaycanın ayrılmaz bir parçası, qəlbi olan Qarabağın düşmənlərdən xilas edilməsi bütün türk dünyasının böyük Qələbəsidir. Cənab Ali Baş Komandan, Siz Ordunuzla bərabər qazandığınız Zəfəri tarixə qızıl hərflərlə yazdınız, türk dünyasının bayrağını ucaltdınız. Bir daha Sizi və xalqınızı möhtəşəm Qələbə münasibətilə təbrik edirəm. Bütün Türkiyə Sizinlə qürur duyur. Cənab Prezident, 30 ilə yaxın düşmən işğalı altında qalan şəhər və kəndlərin viran edildiyinin şahidi olduq. Siz də qeyd etdiyiniz kimi, Qarabağın yenidən canlanacağına, cənnətə çevriləcəyinə əminik. Prezident olduğunuz 17 ildə Azərbaycanı güclü bir ölkəyə çevirdiniz. Bununla bağlı yürütdüyünüz möhtəşəm siyasəti, mübarizəni yaxından izləyirik. Qarabağda həyata keçirməyi planlaşdırdığınız layihələrin böyük uğurla nəticələnəcəyinə əminik. Cənab Prezident, biz də ”Bahaş Holdinq” olaraq Qarabağın yenidən canlanması və qurulması layihələrində Sizə və Azərbaycan xalqına dəstək vermək istəyirik. ”Bahaş Holdinq” 30 il əvvəl fəaliyyətə başlayan, bu gün başda inşaat olmaqla, səhiyyə, turizm, müdafiə sənayesi, əkinçilik və heyvandarlıq, enerji, texnologiya kimi bir çox sahələrdə fəaliyyət göstərən və gələcəyə yönəlik çoxsaylı layihələr həyata keçirən şirkətlər qrupudur.

**Türkiyə, Ankara şəhərindən Ertan İlhan:** Hörmətli Prezident İlham Əliyev, Qarabağın azad olunması üçün göstərmiş olduğunuz yüksək Komandanlıq məharətinizə görə, Şuşa şəhərimizi yenidən torpaqlarımıza qataraq tacladırdığınız üçün böyük türk dünyasının bir vətəndaşı olaraq, Sizə təşəkkür edir və hörmətlə əllərinizdən öpürəm. Hörmətli Prezident, Qarabağda yazılan dastan Azərbaycanda yaşayan qardaşlarımız qədər bizim də böyük sevincimizə səbəb olmuşdur. Mən riyaziyyat, həyat yoldaşım isə fizika dərsini tədris edirik. Şuşa şəhərində yaşayan qardaşlarımıza dəstək olmaq, müəllim kimi bildiklərimizi onlara çatdırmaq ən böyük arzumuzdur.



**Naftalan şəhərindən İltifat Lütfizadə:** Müzəffər Ali Baş Komandan! 31 il öncə baş verən bu qanlı faciə hər birimizin yaddaşına əbədi olaraq həkk olunmuşdur. Həmin gün Azərbaycan tarixinə qanla yazılan bir səhifə olsa da, bu tarix eyni zamanda xalqımızın milli mədəniyyətinin, azadlıq istəyinin oyanış günü idi. Azərbaycan xalqına qarşı törədilən cinayətə, qanlı faciəyə ilk etiraz səsini ucaldan isə məhz Ulu Öndərimiz Heydər Əliyev oldu. Hazırda Sizin rəhbərliyinizlə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin bütün problemlərinin həlli istiqamətində həyata keçirilən layihələr, onlara göstərilən diqqət və qayğının ən bariz nümunəsidir. Allahdan Ulu Öndər Heydər Əliyevə və 20 Yanvar faciəsinin qurbanlarına, o cümlədən ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizə rəhmət diləyirəm.

**Sumqayıt şəhərindən Əsgər Piriyev:** Cənab Müzəffər Ali Baş Komandan, sevimli Prezidentimiz. Sizin rəhbərliyinizlə şanlı Ordumuz qaniçən, qəddar, hiyləgər erməni vandallarını Azərbaycan torpaqlarından qovdu. Buna görə Sizə minnətdarıq. Sizin bütün çıxışlarınız və müsahibələriniz məni heyran edir. Sizin möhkəm iradənizin, qətiyyətli mövqeyinizin, müdrik və uzaqgörən siyasətinizin nəticəsidir ki, bu gün bütün xalqımız böyük Qələbənin sevincini yaşayır. Sizinlə fəxr edirik, cənab Prezident! Sizə və ailənizə möhkəm cansağlığı, firavanlıq arzulayıram. İşğaldan azad etdiyiniz Şuşa şəhərinin girişində Sizin möhtəşəm abidənizin ucaldılmasını arzu edirəm.

**Aynurə Pənahqızı**

# Bayden daha iddialı siyasət yeridəcək

## ABŞ yenidən super güc kimi meydanlara qayıtmağı düşünür



ABŞ-da yeni seçilmiş Prezident Cozef Baydenin inauqurasiya mərasimi keçirilib. Ölkənin 46-cı prezidenti and içərək vəzifəsinin icrasına başlayıb. Baydenlə yanaşı, vitse-prezident Kamala Harris də and içib. Hakimiyyəti yeni komandaya əvvəlki prezident Donald Tramp yox, sabiq vitse-prezident Mayk Pens ötürüb. İnaqurasiyada keçmiş prezidentlər Bill Klinton, Corc Buş və Barak Obama da iştirak ediblər.

Səlahiyyətləri başa çatmış prezident Donald Tramp isə andiçməyə qatılmayıb. O, həyat yoldaşı Melanya Trampla Vaşinqtondan Floridaya gedib. Bayden rəsmən prezident olduqdan sonra ilk addım kimi Trampın imzaladığı bəzi qərarları ləğv edib. O, ilk olaraq ölkənin Paris iqlim razılaşmasına qayıtması barədə sərəncam imzalayıb. Kanada ilə sərhəddə ”Keystone XL” neft kəmərinin tikintisinin dayandırılmasına dair əmrə imza atıb. Maraqlı məqam odur ki, bu kəmərin tikintisinə 2015-ci ildə Barak Obama qarşı çıxsa da, Tramp prezident olduqdan sonra buna izn vermişdi. Baydenin imzaladığı növbəti əmr isə 6 müsəlman ölkəsi vətəndaşlarının ABŞ-a girişinə qoyulan qadağanın ləğvi ilə bağlı olub. Tramp dövründə qadağaların şamil edildiyi ölkələr sırasında Suriya, İran, Liviya, Somali, Sudan və Yəmən yer almışdı. Bayden, həmçinin Meksika ilə sərhəddə divarın tikintisinin dayandırılması haqqında da sərəncam imzalayıb. Yeni prezident rəsmi Tehranın ciddi şəkildə öz öhdəliklərini yerinə yetirəcəyi təqdirdə ABŞ-ın nüvə razılaşmasına qayıdacağını da istisna etməyib. Ağ Evin mətbuat katibi Cen Psaki bildirib ki, Bayden məsələ ilə bağlı müttəfiqləri ilə məsləhətləşmələr həyata keçirəcək.

**Yeni prezident Baydenin açıqlamaları və qərarları ilə bağlı ”Şərq”ə danışan Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı deyib ki, Amerika dövləti XIX əsrin əvvəlinə kimi dünya siyasəti ilə bağlı qeyri-müəyyənlik yaşayırdı.** Analitikin sözlərinə görə, həmin dövrdə qəbul edilmiş doktrinaya əsasən, siyasət qitədən kənara çıxmamalı və başqa dövlətlərin qitəyə qarışmasına imkan verilməməli idi: ”ABŞ-ı Amerika qitəsi ilə məhdudlaşdıran bir anlayışdan söhbət gedirdi. XX əsrin əvvəlində, prezident Vudro Vilsonun dövründə bu anlayışı bir qədər tərk etməyə cəhd göstərdilərsə də, nəticə dəyişmədi. İkinci Dünya müharibəsindən sonra isə hegemonluq iddiasında olan ABŞ meydana çıxdı. Dünyanın hər yerində, hər mövzuya qarışan bir dövlətin şahidi olduq. Vaşinqtonun ”dünyanın hər nöqtəsində sözümüz eşidilməlidir” iddiası sadəcə Obama, yaxud Corc Buşla bağlı deyil. Bu, illər boyu həyata keçirilən ümumi siyasətin təməlidir. Ancaq Donald Trampın hakimiyyəti illərində nisbətən fərqli mənzərəni gördük. Tramp ölkədaxili işlərə daha çox meyl edirdi. Amma tam qapalı siyasət də aparmırdı. Yeri gələndə İran, Çinə və s. ölkələrə qarşı aqressiv mövqe sərgiləyirdi. Hətta Amerikanın müttəfiqlərini belə küsdürmüşdü. Bayden seçkidən öncə belə bir ifadə işlətmişdi ki, ”müttəfiqlərimiz hazırlaşsın, biz geri qayıdırıq”. Seçkidən qabaq Tramp dost və müttəfiq ölkələrlə əlaqələri korlamaqda ittiham olunurdu. Bayden dost və düşmənə mesajını bu cür çatdırmışdı”.

*Analitikin fikrincə, yeni prezidentin qərarları görüntü xatirinə deyil. Onun açıqlamaları da səthi xarakter daşımır:* ”ABŞ yenidən super güc kimi meydanlara qayıtmağı düşünür. Bu da Amerikanın həm iqtisadi, həm təhlükəsizlik maraqları, həm də iddiaları ilə bağlıdır. Amerikanın enerji sənayesi, hərbi iqtisadiyyatı ölkənin imperial iddiaları ilə bütövləşib. O baxımdan Bayden daha iddialı siyasət yeridəcək. Trampın bəzi məsələlərdə geri çəkilməsi beynəlxalq münasibətlərdə qlobal dəyişikliklərə səbəb olub. Bayden Rusiya, Türkiyə və Çinin mövqeyi ilə bağlı Vaşinqtonun əvvəlki siyasətini bərpa edəcək. Həm də ölkəni yeni risklərə və münasibətlərə hazırlayacaq. O cümlədən beynəlxalq sistemdə fəal olmağa səy göstərəcək. Amma bu, heç də asan olmayacaq”.

**Yeni prezdent Rusiya, Türkiyə və Çinin mövqeyi ilə bağlı Vaşinqtonun əvvəlki siyasətini bərpa edəcək**

**İsmayıl Qocayev**

## TANAP vasitəsilə 9 milyard kubmetrdən çox qaz nəql edilib

**Trans-Anadolu qaz kəməri (TANAP) vasitəsilə bu günədək təxminən 9,1 milyard kubmetr qaz nəql edilib. Trend-in məlumatına görə, bunu Türkiyənin energetika və təbii ehtiyatlar naziri Fatih Dönmez deyib.**

O bildirib ki, 2020-ci il ərzində TANAP vasitəsilə 4,9 milyard kubmetr qaz tədarük edilib.

Nazir əlavə edib ki, ötən il Türkiyənin qaz idxalının 24 faizi Azərbaycanın payına düşüb

Bundan başqa, F.Dönmez bildirib ki, İğdır-Naxçıvan qaz kəməri layihəsi üzrə işlər tam sürətlə davam edir:

”Bizim məqsədimiz Naxçıvanı təbii qazla təhlükəsiz və fasiləsiz şəkildə təmin etməkdir”.

## Qırğızıstan hökuməti istefaya göndərilib



**Qırğızıstanda növbədənkənar prezident seçkilərində dövlət başçısı seçilən Sadır Japarov Baş nazir vəzifəsindən istefa verib, hökumət isə istefaya göndərilib.**

Azərtac xəbər verir ki, bu barədə jurnalistlərə Qırğızıstan Prezident Aparatının rəhbəri Suynbek Kasmambetov bildirib. O deyib ki, Sadır Japarov hökumət üzvlərindən yeni hökumət formalaşanadək səlahiyyətlərini icra etmələrini xahiş edib. Yeni hökumətin yaxın günlərdə formalaşdırılması nəzərdə tutulur.

*Xatırladırıq ki, Sadır Japarov prezidentliyə namizədliyini verənədək müvəqqəti olaraq ölkənin Baş naziri və Prezident səlahiyyətlərini icra edib.*

# Xəzərdə anlaşma

## Azərbaycanla Türkmənistan arasında “Dostluq” yatağının birgə işlənməsinə dair imzalanan Memorandum tarixi hadisədir

Dünən Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib.

Görüş zamanı Xəzərdə "Dostluq" yatağının birgə işlənməsinə dair Memorandum imzalanıb.



**“Burada Azərbaycan dövlətinin apardığı təmkinli və sakit, eyni zamanda bölgənin gələcəyinə yönəlik siyasəti mühüm rol oynayır”**

İki ölkə arasında imzalanan Memorandum olduqca mühüm hadisədir . Bu anlaşma istər iki dost və qardaş ölkənin enerji sahəsində əməkdaşlığının möhkəmləndirilməsi, istərsə də bütövlükdə regionumuzda yeni tərəfdaşlıq və tranzit kommunikasiyalarının inkişafı perspektivləri baxımından əhəmiyyətlidir.

Həm də bütövlükdə Xəzər ekvatoriyasında yeni tərəfdaşlıq və əməkdaşlıq platformasının yaradılması deməkdir. Məsələ ondadır ki, Türkmənistan və Azərbaycanın dəniz sərhədlərinin kəsişməsində yerləşən yataqlar çox da uzaq olmayan keçmişdə bəzi mərkəzlər tərəfindən siyasi istismar mövzusuna çevrilirdi. Həmin dairələr ”mübahisəli yataq” məsələsini ortaya ataraq, Azərbaycanın Türkmənistanla daha sıx əməkdaşlığının qarşısını alır, Mərkəzi Asiya ölkələri ilə münasibətlərin genişləndirilməsinə mane olurdular. Ancaq ikitərəfli Memorandum bədniyyətli qruplaşmaların bütün fəaliyyətini neytrallaşdırdı.

**Böyük tarixi əhəmiyyət kəsb edən anlaşma ilə bağlı ”Şərq”ə danışan millət vəkili, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı deyib ki, uzun müddət Azərbaycanla Türkmənistan arasında müəyyən ziddiyyətli məqamlar var idi. Deputat xatırladıb ki, türkdilli ölkələrin formalaşdırdığı birliklərə, keçirilən tədbirlərə Qazaxıstan, Qırğızıstan, Azərbaycan və Türkiyə qatılırdı. Daha sonra Özbəkistan da türk birliyinə qoşuldu:** ”Son zamanlar Türkmənistan təmsilçiləri də bu və ya digər formada türk dövlətlərinin birgə forumlarında iştirak edirdi. Türkmənistanın nisbətən uzaq qalmasının müəyyən səbəbləri var idi. Ola bilsin, bu, ölkənin müstəqillik dövründən sonra tutduğu mövqedən asılı idi. Bəlkə, ilkin mərhələdə proseslərə qoşulmama qərarı almışdılar. Digər səbəb isə Xəzər dənizində mübahisəli enerji yataqlarının bölünməsi ilə bağlı idi. Xəzər dənizinin statusu ilə bağlı qeyri-müəyyənlik də münasibətlərdə problemlərə səbəb olurdu. Amma tədricən ziddiyyətlər aradan qalxmaqdadır. Şübhəsiz, burada Azərbaycan dövlətinin apardığı təmkinli və sakit, eyni zamanda bölgənin gələcəyinə yönəlik siyasəti mühüm rol oynayır. O mənada Türkmənistanla ”Dostluq” yatağının birgə işlənməsi son dərəcə önəmlidir. Azərbaycanın enerji sahəsində təcrübəsi böyükdür. Dənizin ən dərin qatlarında özüllər, platformalar qurur və onları sahillə əlaqələndiririk. Bu da Türkmənistana xeyir gətirən vacib məqamlardan biridir. Mümkündür ki, dənizdəki yataqdan çıxarılan ehtiyatlar geriyə, Türkmənistana deyil, birbaşa Avropaya daşınsın. Bu da Türkmənistan üçün əlavə imkandır. Memorandum hər birimizi sevindirməlidir. Çünki bu anlaşma normallaşan əlaqələrə daha bir nəfəs gətirəcək. Ən əsası isə bu sayədə Türkmənistan da türk birliyinin inkişafında daha yaxından iştirak edəcək və öz töhfəsini verəcək”.

**İsmayıl Qocayev**

## Azərbaycan və Fransa XİN başçıları telefonla danışıblar




**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Fransa Respublikasının xarici işlər naziri Jan İv Lö Drian arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, nazirlər bölgədəki son vəziyyət, o cümlədən Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatların icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycan və Fransa arasında ikitərəfli münasibətlərin cari vəziyyəti müzakirə edilib və bu sahədə dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Azərbaycan əsgəri minaya düşərək şəhid olub



**Azərbaycan Ordusunun daha bir əsgəri minaya düşüb.**

Hərbi qulluqçu Cavadov Rəşad Fərzəli oğlu mina partlayışı nəticəsində şəhid olub.

Müdafiə Nazirliyi ”Report”a faktı təsdiqləyib.

Hadisə ilə əlaqədar araşdırma aparılır.

# “Qələbə diplomatik sferada da rəsmiləşdirilməlidir”

Tanınmış hərbi diktor, ifaçı Şəmistan Əlizamanlının mahnılarından birindəki" Türk deyil ki, öz qanından qorxan türk" cümləsi son vaxtlar tez-tez yadıma düşür. Biz bu teoremi ayrı-ayrı vaxtlarda dəfələrlə sübut etmişik. Növbəti zəfər yürüşümüz - İkinci Qarabağ müharibəsi də belə tarixi günlərdən idi. Kədərləndik, həyəcanlandıq, sevindik Və bu cür anların hər birində qardaş türklər yanımızda oldular, emosiyalarımıza şərik çıxdılar.

**Şeref Yiğit: “Ermənistan “boş qabdan səs çox çıxar” prinsipilə hərəkət edir”**



**Türkiyənin TRT kanalının keçmiş müxbiri, hazırda təqaüddə olan jurnalist Şeref Yiğit də ölkəmizdə baş verən hadisələri yaxında izləyib. O, barədə ”Şərq”ə danışarkən qələbəmizlə fəxr etdiyini deyib:** ”Mən Ermənistanın Qarabağı işğal etməsindən sonra Bakıda iki il çalışdım. Yerindən-yuvalarından didərgin salınmış insanları şəxsən tanıdım. Qardaşlıq bir kənara, içində azacıq vicdan olan heç kim bu zülmə qarşı səssiz qala bilməzdi. Bilirik ki, Ermənistan ovaxtkı vəziyyətdən və əlbəttə, Rusiyanın da dəstəyindən yararlanaraq torpaqlarınızın iyirmi faizini işğal etmişdi.

Bu işğalla barışılmayacağını, qardaş Azərbaycanın bir gün ayağa qalxacağını bilirdim. Doğrudan da, siz keçən on illiklər ərzində iqtisadi və hərbi cəhətdən güclənərək torpaqlarınızı azad etməyi bacardınız. Bunu mütləq deməliyəm ki, Azərbaycan ordusunun müharibədəki qələbəsi Türkiyəyə də böyük sevinc və həyəcan yaşatdı. Hamımızı qürurlandırdı. Əlbəttə, mən də qələbənizi sosial media və televiziyadan izlədim.



**“Məhz belə məqamda Türkiyə ilə Azərbaycanın media quruluşlarının birgə fəaliyyəti gündəmə gəlir”**

Amma təəssüf ki, biz türklərin ən böyük çatışmazlığı hərb meydanında əldə etdiyimiz uğuru bir çox hallarda diplomatik sferada rəsmiləşdirə bilməməyimiz olub. Bu, erməni soyqırımı yalanları və haqlı digər mübarizələrimizdə üzə çıxıb.

Əvəzində ermənilər illərlə soyqırıma məruz qalınıbmış kimi davranaraq özlərini zərərçəkmiş qismində təqdim etməyi bacarıblar. Əlbəttə, burada bir çox ölkələrin erməni yalanlarını dünəndən qəbul etməyə hazır olduqları mühüm faktdır. Deməli, indi torpaqlarımızı azad etdiyimizə görə arxayınlaşmalı deyilik”.

**Jurnalistin fikrincə, ehtiyatı əldən verməк olmaz. O, bu məsələdə mətbuatın rolunu xüsusi qiymətləndirir:** ”Ermənistan ”boş qabdan səs çox çıxar” prinsipilə hərəkət edərək ağlayıbsızlayır və dünya ictimaiyyətini çaşdırır. Təəssüflə deməliyəm ki, Fransa başda olmaqla bir çox ölkələr artıq işğalçıya inanmağa, hətta onu dəstəkləməyə başlayıblar. Məhz belə məqamda Türkiyə ilə Azərbaycanın media quruluşlarının birgə fəaliyyəti gündəmə gəlir. Ermənistanın informasiya məkanındakı təxribatlarının qarşısını almağa və dünya ictimaiyyətinə həqiqətin çatdırılmasına ehtiyac var. Qarabağı boşaldarkən Azərbaycan əsgərlərinin göstərdiyi humanist münasibət dünyaya kifayət qədər çatdırıla bilibmi? Məncə, yox. Hər halda iki ölkə KİV-i arasındakı koordinasiyalı fəaliyyət beynəlxalq münasibətlərdə ciddi dəyişikliklərə nəticələnə bilər.

Fikrimcə, bir ölkənin yeraltı və yerüstü sərvətlərə malik olması böyük avantaj olmaqla yanaşı, həm də arzuedilməzliklərə yol aça bilir. Çünki bu sərvətlər qlobal güclərin diqqətinin bizə yönəlməsinə səbəb olur.

Yəni müəyyən qüvvələr sahib olduqlarımızı bizimlə bölüşməyə çalışır. Orta Şərqdə baş verənlərin təməlində dayanan da məhz budur.

Ümumiyyətlə, Orta Şərq və Cənubi Qafqaz kimi ərazilər imperialist güclər üçün ”yağlı tikə”dir. Bax, məhz bu nöqtədə region ölkələrinin reaksiyaları və uğurlu diplomatik addımlar həlledici rol oynayacaq. Azərbaycan hakimiyyətinin bu məsələdə lazımi addımlar atacağına ürəkdən inanıram.

Eyni zamanda Azərbaycanın yaxın gələcəkdə regionda əhəmiyyətli bir güc mərkəzi olacağına əminəm. İkinci bir tərəfdən, Türkiyə və Azərbaycan arasındakı əməkdaşlıq yaxın gələcəkdə Orta Asiyayadək uzanan türk birliyinin təməli olacaq”.

**Kənan Novruzov**

# Mətbuat Şurası 2020-ci ildə gördüyü işlərə dair hesabat yayıb



Azərbaycan Mətbuat Şurası 2020-ci ildə gördüyü işlərə dair hesabatını təqdim edib. Hesabatda bildirilib ki, ötən il Şurasnın fəaliyyətində iki başlıca ənənəvi xətt olub. Bunlar birincisi şikayətlərin araşdırılmasıdır. "Şərq" xəbər verir ki, ötən il Şuraya ümumilikdə 389 müraciət daxil olub. Onlardan 261-i bilavasitə kütləvi informasiya vasitələrində gedən materiallardan şikayətdir. 128 müraciət digər məsələlərlə bağlı olub.

Şura Katibliyi 261 şikayətlə əlaqədar tərəfləri quruma dəvət edib. Bu mərhələdə 178 məsələ Katiblikdə həllini tapıb, tərəflər arasında anlaşma əldə olunub. Digər 83 halda şikayətçi və cavabdeh tərəf arasında razılığa gəlinmədiyindən, məsələlər və onlarla bağlı toplanmış materiallar baxılmaq üçün Şuranın Şikayətlər üzrə Komissiyasına təqdim edilib.

Şikayətlər üzrə Komissiyada baxılan 83 məsələdən 67-i komissiya səviyyəsində həllini tapıb. Digər 16 məsələ barədə çıxarılan rəylər qərar qəbulu üçün Şuranın İdarə Heyətinə təqdim edilib.

261 şikayətin 95-i ayrı-ayrı vətəndaşlardan, 94-ü dövlət idarə, müəssisə və təşkilatlarından, 72-i özəl müəssisələrdəndir. Ötən il ərzində müxtəlif məsələlərlə bağlı Şuranın İdarə Heyətinin 6, Şikayətlər üzrə Komissiyanın 11 iclası keçirilib.

Şikayətlərin KİV-lər üzrə təsnifatına gəlincə, internet xəbər portallarının fəaliyyətindən narazılıqlar ümumi şikayətlərin 73 faizini təşkil edib. İnformasiya agentlikləri ilə bağlı şikayətlərin faiz göstəricisi 16-dır. Şikayətlərin 10 faizi qəzetlərdən, 1 faiz isə jurnallardandır.

Şikayətçilər materiallarda əsasən mövqelərinin işıqlandırılmamasından, şərəf və ləyaqətlərinin təhqirindən, işgüzar nüfuzlarının ləkələnməsindən narazılıqlarını bildiriblər. Mətbuat Şurasının cavabdeh KİV-lərlə bağlı qərarlarında təkzib vermək (44 %), qarşı tərəfin mövqeyinin işıqlandırılması (35 %), şikayətə səbəb olmuş materialın silinməsi (9%) tövsiyəsi yer alıb. Eyni zamanda qərarların 12 faizində şikayətçiyə məsələnin hüquqi müstəvidə araşdırılmasının zəruriliyi ilə bağlı məlumat verilib.

Hesabatda həmçinin Azərbaycan Mətbuat Şurasının jurnalistlərin xüsusi karanti rejimində peşə fəaliyyətinin həyata keçirilməsinin səmərəliləşdirilməsi istiqamətində Operativ Qərargah və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə müntəzəm təmaslarından söz açılıb.

Bundan başqa sənəddə 9 fevral parlament seçkiləri ilə bağlı fəaliyyət, o cümlədən Şuranın medianın seçkini işıqlandırması vəziyyəti ilə bağlı monitorinqinin nəticələri əksini tapıb.

Hesabatda əksini tapan vacib məqamlardan biri də MŞ-nin Vətən müharibəsi ilə bağlı fəaliyyətidir. Bildirilib ki, qurum müharibə müddətində yerli və xarici KİV-lər müraciətlər ünvanlayıb. Bu baxımdan Şuranın Rusiya KİV-lərinin Dağlıq Qarabağ münaqişəsində birtərəfli mövqe tutmalarına, ölkə ictimaiyyətini yanlış, qeyri-obyektiv məlumatlandırmalarına dair Rusiya Jurnalistlər İttifaqına müraciəti xüsusi vurğulanmalıdır.

Müharibə müddətində MŞ Dağlıq Qarabağa xaricdən jurnalist səfərləri ilə bağlı bəyanat yayıb. Sənəddə Azərbaycanın razılığı olmadan bölgəyə jurnalist səfərlərinin həyata keçirilməsinin yolverilməzliyi, Ermənistanın bilərəkdən xarici jurnalistlərin həyatlarını təhlükəyə atdığı vurğulanıb.

Mətbuat Şurası TASS İnformasiya Agentliyinin diplomatik informasiya strukturları ilə əlaqələr şöbəsinin müdiri Səadət Kadırovaya təzyiqlə bağlı Rusiyanın media ictimaiyyətinə, AZTV-nin çəkiliş qrupunun atəşə məruz qalması, Fransanın "TF1" telekanalının üzləşdiyi durumla, "Euronews" telekanalının çəkiliş qrupunun Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması, Erməni lobbisinin "La Repubblica" və "Nyu-York tayms" qəzetlərinə hücumları ilə bağlı dünyanın aparıcı media qurumlarına, insan hüquqları birliklərinə və beynəlxalq təşkilatlara müraciətlər ünvanlayıb.

Mətbuat Şurasının təşəbbüsü ilə qurumun İdarə Heyətinin üzvləri və baş redaktorlar cəhbədə döyüşən jurnalistlərin ailələrinə baş çəkib, yardım ediblər.

## Şəmkirdə jurnalist qətlə yetirilib




**Şəmkir rayonunda qətl hadisəsi baş verib.**

APA-nın yerli bürosunun məlumatına görə, hadisə rayonun Qədim Qala kəndində törədilib. Kənd sakini, 1985-ci il təvəllüdlü Əliyev Bəxtiyar Adil oğlu odlu silahla qətlə yetirilib.

Hadisə yerinə hüquq-mühafizə orqanların əməkdaşları cəlb olunub. Məlumata görə, Bəxtiyar Əliyevi yaxın qohumu Vasif Aslanov (dayısı oğlu) qətlə yetirib.

*Qeyd edək ki, mərhum bölgədə fəaliyyət göstərən qəzetlərdən birinin redaktoru olub.*

## Vətən müharibəsində 8 mədəniyyət işçisi şəhid olub



**Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda müqəddəs savaşda iştirak etmək üçün minlərlə Vətən övladı ilə bərabər mədəniyyət müəssisələrində çalışan insanlar da könüllü olaraq ordu sıralarına yazılıb və onlardan 65 nəfəri səfərbərliyə cəlb olunub.**

Bu barədə "Şərq"ə Mədəniyyət Nazirliyindən məlumat verilib. Tarixi Zəfərlə başa çatan müharibədə 8 nəfər mədəniyyət işçisi şəhidlik zirvəsinə ucalıb. Azərbaycan mədəniyyətinə xidmət etmiş bu igidlər Vətən yolunda canlarından keçərək adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazıblar.

Müharibədə 10 nəfər mədəniyyət işçisi yaralanıb, ümumilikdə 162 nəfər mədəniyyət işçisinin yaxın qohumu şəhid olub.

Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş və yaralanmış mədəniyyət işçilərinin ailələrinə Mədəniyyət Nazirliyi və nazirliyin Həmkarlar İttifaqı tərəfindən maddi yardım göstərilib.

# 17 ildə mükəmməl gənclik yetişdi

Vətən müharibəsi günlərində xalqımız üçün səciyyəvi olan mühüm cəhətlərdən biri vətənpərvərlik hissi və yüksək milli ruh idi. Təsadüfi deyil ki, İkinci Qarabağ savaşında minlərlə gənc erməni işğalçılarına qarşı mübarizə aparmaq üçün könüllü müraciət edərək cəbhəyə yollanmaq istəklərini ortaya qoydular. Arxa cəbhədə qalanlar isə səngərdə olanlara əllərindən gələn köməyi əsirgəmədilər. Hər cür maddi və mənəvi dəstək verdilər, günlərlə cəbhəyə ərzaq və geyim daşıdılar, yaralılara qan verdilər.

Bütün bunlar bir daha göstərdi ki, siyasi, dini və sosial mövqeyindən asılı olmayaraq Vətənin ümumi maraqları hər bir vətəndaş üçün bütün arzu və istəklərdən öndə dayanır. Tarixin bu sınağından alnıaçıq və üzüağ, zəfərlə çıxmağımızı şərtləndirən başlıca amillərdən biri də sonsuz vətənpərvərlik hissi, milli ruhun yüksəkliyi idi. Adətən, bir ölkənin tarixində yeni mərhələ yarada bilmiş liderlərin ardıcılları haqqında "onun yetişdirdiyi xalq" ifadəsi işlənir. Liderimiz İlham Əliyevin hakimiyyətdə olduğu son illərdə vətənpərvər, milli ruhda tərbiyə almış dinamik gənc nəsil yetişib. Dövlət başçısı Şuşaya səfəri zamanı bu məqama xüsusi diqqət çəkdi. Ölkə rəhbəri Azərbaycanda vətənpərvər gənclərin yetişməsindən çox şad olduğunu bildirdi. Bəyan etdi ki, məhz onun Azərbaycana rəhbərlik etdiyi 17 il ərzində yetişən nəslin nümayəndələri işğal altındakı torpaqlarımızı düşməndən azad etdilər: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Həqiqətən, döyüşlərdə qəhrəmanlıq göstərən, öz şücaətləri ilə hərbi ekspertləri heyrətə salan əsgər, MAXE və zabitlərin çoxu ali təhsilini, orta təhsilini, hətta bir çox hallarda məktəbəqədər təhsilini Ali Baş Komandan İlham Əliyevin hakimiyyəti illərində alaraq vətənpərvər kimi yetişmiş 18-35 yaşlı gənclər idi. Məhz onların canı, qanı bahasına 30 ilə yaxın həsrətində olduğumuz Vətən torpaqları azadlığa qovuşdu, düşməndən təmizləndi.



Qələbələrin hamısında onlar öndəydi

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, gənc siyasi şərhçi Tural İsmayılov "Şərq"ə bildirib ki, ümumiyyətlə, dövlət başçısı İlham Əliyevin siyasətində gənclər məsələsi daim ön planda olub.** Ekspertin sözlərinə görə, məhz Prezidentin ölkəyə rəhbərliyi dövründə Azərbaycanda gənclər siyasəti ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilib: "Gənclərlə bağlı atılan addımlar içərisində hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi fonunda verilən sərəncamlar mühüm rol oynayır. Azərbaycanda gənclər hərəkatı və təşkilatları bumunun inkişafı birbaşa dövlət rəhbərliyinin bu sahəyə xüsusi qayğısı nəticəsində mümkün olub. Ümumiyyətlə, hökumətin təşviq etdiyi bütün layihələrdə, istər incəsənətlə, istər siyasi polemikalarla bağlı olsun, hərbi-vətənpərvərlik ruhu öncəlik təşkil edib. Cənab Prezidentin göstərişi sayəsində Azərbaycanda gənclərdən ibarət böyük könüllülük hərəkatı formalaşıb. Gənclərimiz Azərbaycanda keçirilən beynəlxalq əhəmiyyətli mühüm platformalarda, yarışlarda həm təcrübə toplayıblar, həm də dünyagörüşləri artıb".

Ekspert 2020-ci ilin dövlət başçısı tərəfindən "Könüllülər İli" elan olunmasına diqqət çəkib: "Təəssüflər olsun ki, pandemiya şəraiti açıq tədbirlərin keçirilməsinə imkan vermədi. Buna baxmayaraq, gənclərimiz il boyu əksər proseslə yüksək səviyyədə təmsil olundular. Əlbəttə ki, həm Azərbaycan Silahlı Qüvvələrinin tərkibində, həm də müharibəyə könüllü qatılan, səfərbərliyə cəlb olunan vətəndaşlarımız arasında gənclərin böyük üstünlüyü var idi. Cənab Prezidentin Şuşa səfərində vurğuladığı kimi həmin gənclər Qarabağ ermənilər tərəfindən işğal olunanda ya dünyaya yeni gəlmişdilər, yaxud heç anadan olmamışdılar. Onlar Prezidentin Azərbaycana rəhbərlik etdiyi dövr ərzində yetişiblər, vətənpərvər ruhda böyüyüblər. Ordumuzun böyük əksəriyyətini təşkil edən gənclərimiz Qarabağın düşmən işğalından azad edilməsində müstəsna rol oynayıblar. Bu danılmaz fakt gənclərin önəmini bir daha ortaya qoyur".

**İsmayıl Qocayev**



## Məktəblərin fevralın 1-də açılmasına hazırlıq görülür

### İbtidai sinif şagirdləri növbəli şəkildə, həftədə iki-üç dəfə dərsə gedəcəklər

**Azərbaycanın ümumtəhsil müəssisələrində fevralın 1-dən etibarən tədris prosesinin bərpa olunacağı gözlənilir.**

"Report"un məlumatına görə, artıq məsələ ilə bağlı müvafiq qurumlar tərəfindən məktəblərə tapşırıq verilib.

Belə ki, təhsil müəssisələrində tədrisin başlamasına hazırlıq işləri görülür.

Məlumata görə, fevralın 1-dən ibtidai siniflər növbəli şəkildə, həftədə iki-üç dəfə, fevralın 15-dən sonra isə V və IX siniflərin şagirdləri məktəbə gedəcək.

Sabah - yanvarın 22-də Təhsil naziri Emin Əmrullayevin iştirakı ilə 6 nömrəli məktəb-liseydə məktəblərdə tədrisin bərpasına həsr olunan brifinq keçiriləcək.

*Xatırladaq ki, koronavirus pandemiyası səbəbindən hazırda dərslər distant qaydada təşkil olunur.*

## Rusiyada səkkiz hərbçini qətlə yetirmişdi

### Əsgər 24 il 6 ay müddətinə azadlıqdan məhrum edilib



**Rusiyada 8 hərbçini qətlə yetirmiş əsgər Ramil Şamsuddinov 24 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.**

Məhkəmə R.Şamsuddinovu qətldə və qətl törətməyə cəhddə təqsirli bilsə də, bəzi yüngülləşdirici halları nəzərə alaraq onu ömürlük həbs cəzasına məhkum etməyib.

R.Şamsuddinov 2019-cu il oktyabrın 25-də xidmət etdiyi hərbi hissədə odlu silahdan atəş açaraq, 8 hərbçini qətlə yetirib, daha 2 nəfəri yaralayıb. O, cinayət törətməsini hərbi hissədə özünə qarşı zorakılıq olunması ilə izah edib.

## Ukraynada qocalar evində yanğın baş verib, 15 nəfər ölüb

**Xarkov şəhərində yerləşən qocalar evində yanğın baş verib.**

APA-nın xəbərinə görə, bu barədə dünən Ukraynanın Fövqəladə Hallar üzrə Dövlət Xidmətinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, yanğının nəticəsində 15 nəfər ölüb, 5 nəfər xəsarət alıb.

Xilasedicilər yanğının söndürülməsi istiqamətində iş aparırlar.

# "Azərbaycan qalibdir..."

## "Bakı sülhməramlıların fəaliyyətini izləməli və təhlil etməlidir"

### Pakistanlı politoloq: "Rusiyanın Ermənistana güzəştli münasibət göstərməsini demək hələ tezdir"



**Zalımlar da, zülmə məruz qalanlar da bütün tarix boyu olub. Yəqin, bundan sonra da olacaq. Amma keçmişdən çıxardığımız bir dərs də var - qisas qiyamətə qalmır. Ədalət mütləq nə vaxtsa bərpa olunur. Biz bunu Azərbaycan xronologiyasına qızıl hərflərlə yazılmış 2020-ci ildə çox aydın gördük. Otuz il əvvəl havadarlarına güvənərək torpaqlarımızı işğal edən, qətliamlar törədən nankor qonşularımız ermənilər üçün çərxin fələyi artıq çevrilib. İndi vəhşiliklərinin cavabını verirlər. Özü də təkcə Azərbaycan yox, bütün bəşəriyyət qarşısında.**

Torpaqlarımızı artıq azad etmişik. İndi qalıb düşmənin beynəlxalq hüquq qarşısında cavab verməsi. Əlbəttə, ən yaxın zamanda bu da olacaq. Amma ovaxtadək gərək arxayınlaşmayaq, haqq savaşımızdan dönməyək.

**- Pakistanlı siyasi analitik Əşfəq Əhməd Qarabağ müharibəsi və onun fonunda baş verən siyasi proseslərlə bağlı "Şərq"in suallarını cavablandırarkən vəziyyətin xeyrimizə olduğunu konkret faktlarla əsaslandırıb:**

**- Müharibə niyə məhz indi başladı?**

- Ermənilər dörd il əvvəlki Aprel döyüşlərində uduzmuşdular. Sizin qələbəniz Ermənistan hakim dairələrində rüsvayçılıq və beynəlxalq miqyasda ikrah yaratdı. Onlar alçaldılar. Ümumiyyətlə, 30 il əvvəl ermənilərin qanunsuz olaraq sizin torpaqlarınıza sahib çıxması onlarda yanlış təsəvvürlər formalaşdırmışdı. Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan "fəal çəkindirmə" adlanan yeni strategiya hazırlamışdı. Əslində bu hələ bir neçə il əvvəl, itirilmiş əraziləri, yəni Azərbaycanın azad etdiyi torpaqları geri qaytarmaq məqsədilə ortaya atılmışdı. İkinci bir tərəfdən isə düşmən yeni ərazilər tutmaq üçün müharibə ocağını da dəyişmək istəyirdi. Tonoyan bunu "Yeni ərazilər naminə yeni müharibə" adlandırırdı. 2020-ci ildən etibarən Ermənistanda vəziyyət sürətlə pisləşdi. Müxtəlif səbəblərdən, o cümlədən COVİD-19 xəstəliyindən ölənlərin sayı 30 mini keçdi. Müxalifət Baş nazir Nikol Paşinyan administrasiyasını sərt tənqid etməyə başladı. Ölkənin ÜDM 3,5 faiz aşağı düşdü, işsizlik artdı. Beləliklə, Ermənistan iqtidarı əhalinin diqqətini yayındırmaqdan ötrü Azərbaycanın şimal-qərb bölgəsində təxribata başladı. Qarşı tərəf Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Avropa ilə Asiya arasındakı enerji-nəqliyyat dəhlizini hədəf alaraq sizin üçün də daxili böhran yaratmaq niyyətində idi.

**- 10 noyabr bəyanatını necə qiymətləndirirsiniz?**

- "Atəşkəs sazişi" adlandıra biləcəyimiz bu razılaşma hər üç tərəfə - həm Azərbaycana, həm Rusiyaya, həm də Ermənistana təsir göstərdi. Etiraf etmək lazımdır ki, Kreml istədiyini elədi. Rəsmi Bakı qələbə qazandı. Düşmən isə açıq-aydın məğlubiyyətə uğradı. Atəşkəs razılaşması sizin Qarabağa nəzarətinizi təsdiqlədi. Həmçinin üç rayonu bircə gülləsiz azad etdiniz. Prezident İlham Əliyevin bu bəyanatın tarixi əhəmiyyətə malik olduğunu bildirməsi heç də təsadüfi deyil. Ümumiyyətlə, dövlət başçınız çox uzaqgörən siyasət yeritdi. O, işğal altındakı ərazilərin böyük əksəriyyətini geri qaytarmasına və hələ kifayət qədər gücünün olmasına rəğmən, rasional qərar qəbul etdi. Məsələnin sülhlə bitməsinə çalışdı və bunu bacardı. Beləliklə, Prezidentinizin beynəlxalq aləmdəki nüfuzu daha da artdı. O, çox məsuliyyətli lider və siyasətçidir. Ermənilərin sizinlə dinc və sülh şəraitində yaşamağı əsla və əsla Bakının zəifliyi kimi qəbul edilməməlidir. Ermənistan növbəti "dəmir yumruğu" görmək istəmirsə, emosiyaya yox, reallığa tabe olmalıdır.

**- Müqavilənin Ermənistana təsiri nədən ibarət oldu?**

- Dediyim kimi, düşmən çox şey itirdi. Baş nazir Paşinyan bəyanatı özü və erməni xalqı üçün əbəs yerə "ağrılı razılaşma" adlandırmır. Bu, daxildə hiddət yaratdı. Camaat hökumətə qarşı çıxdı, Paşinyanı istefaya çağırdılar, hətta baş nazir əleyhinə sui-qəsd planları hazırlandı. Üstəgəl, etirazçılar parlament binasına daxil oldular. Yeri gəlmişkən, onu da deyim ki, şimal qonşunuz üçün ən böyük fayda ABŞ-ı proseslərdən kənarlaşdırmağı və regiondakı ənənəvi təsir gücünü qorumasıdır. Bəli, o bunu bacardı. Tərəflərin bəyanata qol çəkməsi Rusiyanın regiondakı sabitliyin təminatçısı olmaq deməkdir.

**- 11 yanvar görüşü barədə nə deyə bilərsiniz?**

- Bu, yaxşı işarədir. Düzdür, Prezident Putinin sədrliyi ilə keçirilən görüşün bir çox detalı açıqlanmayıb. Amma regionda nəqliyyat ifrastrukturu, əməkdaşlıq inkişaf edəcək. Bunun üçün yaradılan işçi qrupunun yanvarın 30-da görüşü planlaşdırılır. Həyata keçiriləcək işlərin planı martın 1-dək rəhbərliyə təqdim edilməlidir. Razılığa görə, Çinin "Bir kəmər bir yol" layihəsi Naxçıvan vasitəsilə Türkiyə ilə birləşdiriləcək. Bu isə yüklərin daşınmasına görə nəzərdə tutulan vaxta və məsafəyə qənaət deməkdir. Bölgədə yeni iqtisadi inteqrasiya, inkişaf dövrü başlanacaq. Əgər yoxsul İrəvan iqtisadi mənfəət əldə edə bilsə, razılaşmanın regionda daimi sülhü təmin edəcəyinə inanmaq olar.

**- Bilirsiniz ki, Paşinyan məsələnin hələ bitmədiyini deyib. Deməli, yeni müharibə başlaya bilər?**

- Ermənistan bütün beynəlxalq hüquqları pozaraq Qarabağı 30 ildən çoxdur ki, işğalda saxlayırdı. Nəticədə təkcə siyasilər deyil, bütünlüklə erməni xalqı emosional və psixoloji baxımdan bu torpaqlara bağlanıblar. Sizin dediyiniz kimi, Paşinyanın açıqlaması, həqiqətən, şübhə doğurur. Ermənistanın hərbi ekspertlərinin, həmçinin müttəfiq olduğu ölkə mütəxəssislərinin revanş naminə qüsursuz plan tərtib edəcəkləri ehtimalı mövcuddur. Müqavilə, bəlkə də, sadəcə vaxt qazanmağa, o cümlədən texnika və canlı qüvvə cəhətdən güclənməyə hesablanıb. İkinci bir tərəfdən isə Paşinyanın rəqibi olan Vazgen Manukyan hakimiyyətə gələcəyi təqdirdə, torpaqları geri alacağını və guya, Azərbaycana "dərs verəcəyini" vəd edir. O, xalqın təkidi ilə hakimiyyətə gəlsə, dediyinə əməl etməyə cəhd edəcək. Paşinyanı sərt ittiham edən, onun Ermənistanın maraqlarına uyğun davranmadığını bildirən, opponentini "satqın" adlandıran Manukyan geri addım atmaz.

**- Qarabağdakı rus sülhməramlıları açıq-aydın tərəf tuturlar. Belə bir şəraitdə biz nə etməliyik?**

- Bəli, ruslar düşməni dəstəkləyirlər. Amma onların əməkdaşlıq haqqında sazişlərinin olduğunu da nəzərə almalıyıq. Və buna rəğmən, İrəvanın çoxsaylı çağırışları, xahişləri nəticəsiz qaldı - Rusiya əraziyə Azərbaycanla vuruşmaq üçün hərbi kontingent göndərmədi. Onu da bilməliyik ki, durum Şərqi Ukraynada, Cənubi Osetiya və Abxaziyada olduğu kimi deyil. Çünki üçtərəfli saziş birmənalı olaraq sülh və qarşılıqlı etimad yaratmağı tələb edir. Zənnimcə, Rusiyanın Ermənistana güzəştli münasibət göstərməsini demək hələ tezdir. Mövcud şübhələri artırmağa ehtiyac yoxdur. Sadəcə rəsmi Bakı sülhməramlıların fəaliyyətini izləməli və təhlil etməlidir. Və əlbəttə, tərəfli münasibətə dair fakt üzə çıxanda narazılıq bildirilməlidir.

**- Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov ötən günlərdə Pakistana səfər etdi. Bu görüşü necə dəyərləndirirsiniz?**

- Pakistan Azərbaycanın ərazilərini qanunsuz olaraq işğal etdiyi üçün Ermənistanı tanımır. Biz eyni problemdən - ərazi bütövlüyümüzün pozulmasından əziyyət çəkirik. Belə bir şəraitdə İslamabad və Bakı biri-birlərini dəstəkləyirlər. Pakistan rəsmiləri çətin günlərdə həmişə həmrəyliklərini dilə gətirdilər. Sözügedən görüşdə Baş nazir İmran xan Qarabağdakı yenidənqurma işlərində əlindən gələni etməyə hazır olduğunu söylədi. Mən iki müsəlman ölkə arasında ən müxtəlif sahələrdə əməkdaşlığın güclənməsinə inanıram.

**- Deməli, biz Ermənistanla Hindistanı müqayisə edə bilərik?**

- Elədir ki, var. Hər iki ölkə beynəlxalq hüquq normalarını pozaraq qonşusunun ərazisini tutub. Bu mənada Yeni Dehli ilə İrəvanın heç bir fərqi yoxdur. Onlar işğal etdikləri torpaqlarla kifayətlənməyib, süni şəkildə demoqrafik dəyişiklik edirlər.

Eyni zamanda heç biri atəşkəsə əməl etmir və mülki əhalini hədəf alır, dağıntılar törədir. Onlar xalqlarının yaşayış şəraitini yaxşılaşdırmaq əvəzinə, müharibəyə başlamaq üçün silah alırlar. Və beləliklə, ardı-arası kəsilməyən təxribatlar törədirlər.

Növbəti oxşarlıq onların strategiyalarındadır - ikisi də hərbi əməliyyatları öz ərazisini çəkərək yardım adı ilə müttəfiqlərdən kömək almaq istəyirdi. Rəsmi İrəvan rəsmi Bakını, Hindistan isə bizi beynəlxalq əlaqələrdən təcrid etmək üçün qara piar, çirkin kampaniyalar aparır. Və nəhayət, müharibəyə başlamaq motivi eynidir - daxildəki narazılıqları səngitmək, əhalinin fikrini başqa istiqamətə yönəltmək.

Ümumiyyətlə, Ermənistan və Hindistandakı hərbi-siyasi liderlər faşist ideologiyasına meyillidirlər. Onların hərbi avantüraları, sərt davranışları iqtisadi rifahı, sabitliyi və təhlükəsizliyi təhdid edir.

**- Üç müsəlman ölkəsi - Azərbaycan, Türkiyə, Pakistanın birliyi dünyaya dərs olacaq?**

- Tərəflər arasında ilk üçtərəfli görüş hələ 2017-ci ildə Bakıda keçirilmişdi. Bu yaxınlarda isə "İslamabad bəyannaməsi" qəbul edildi. Həmin sənəd üçtərəfli əməkdaşlığın gələcək kursunu müəyyənləşdirir. Görüşün əhəmiyyəti isə kənar təsirlərə, V nəsil müharibələrə, piar kampaniyalarına, islamofobiyaya qarşı birgə mübarizədən ibarətdir. Pakistan öz can dostları sayəsində Hindistana yalnız olmadığını göstərdi. Bu, Kəşmirdə insan hüquqlarını pozan, eyni ilə ermənilər kimi məsum insanlara qarşı vəhşilik törədən Hindistana ciddi mesaj idi.

**Kənan Novruzov**

# Gürcüstan qazandı, üzlər güldü

## Rusiya beynəlxalq məhkəmənin hökmlərini icra etməyə məcburdur

Strasburqda yerləşən Avropa İnsan Haqları Məhkəməsi "Gürcüstan Rusiyaya qarşı" dövlətlərarası işi üzrə yekun qərar qəbul edib. Məhkəmə Gürcüstanın mövqeyini təmin edərək Avropa İnsan Haqları Konvensiyasının 6 maddəsinin pozulmasına görə Rusiyanı məsul tərəf kimi tanıyıb.



Bununla belə, məhkəmənin Böyük Palatası 8-12 avqust tarixlərində müharibənin aktiv fazası zamanı baş verən hadisələrin Rusiyanın yurisdiksiyasında olmadığını əsas gətirərək Gürcüstan tərəfinin müvafiq iddiasını təmin etməyib. Gürcüstan Prezidenti Salome Zurabişvili Strasburq məhkəməsinin bugünkü qərarının Gürcüstan üçün tarixi önəm daşıdığını bəyan edib. Xatırladaq ki, Gürcüstan 2008-ci il avqustun 11-də Rusiya ilə 6 maddədən ibarət atəşkəs razılaşmasının imzalanmasından 1 gün sonra AİHM-ə müraciət ünvanlayaraq Rusiyanı atəşkəsi pozmaqda ittiham edib. Bununla ələqədar indiyədək məhkəməyə 700-dək dəlil təqdim edilib.

**Qərarı "Şərq"ə təhlil edən millət vəkili, hüquqşünas Tahir Kərimli bildirib ki, Rusiya beynəlxalq hüququn və İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasını qəbul edib.** Deputatın sözlərinə görə, Avropa İnsan Haqları Məhkəməsinin qərarı Rusiya üçün məcburi xarakter daşıyır: "Konstitusiya istisna olmaqla beynəlxalq məhkəmələrin qərarları istənilən yerli istansiyasının qərarından üstün sayılır. Bu baxımdan Rusiya beynəlxalq məhkəmənin hökmlərini icra etməyə məcburdur. Sözsüz ki, Moskva qərara siyasi prizmadan yanaşacaq və prosesi mümkün qədər uzadacaq. Bunu Qərbin Kremlə növbəti təzyiqi kimi təqdim edəcək. Lakin AİHM-nin istənilən qərarı beynəlxalq əhəmiyyətə malikdir. Həmçinin, dünya və postsovet ölkələri üçün önəmlidir. Bu cür qərarlar presedent yaratmaq gücündədir və Rusiyanın içində olduğu digər problemlərdə analoji nəticənin çıxmasına imkan verə bilər. Məsələn, gələcəkdə Dnestryanı bölgələr və Krım məsələsi ilə bağlı işə baxılanda prosedur uzun çəkməz və indiki qərar əldə rəhbər tutular. Təbii ki, qərar ilk növbədə Gürcüstan üçün hüquq müstəvisində böyük qələbədir. Rusiya üçün isə mənfi imicdir".

**İsmayıl Qocayev**



## DİN-in çavuşu şəhid olub

### Vida mərasimində Vilayət Eyvazov və nazir müavinləri iştirak ediblər

**Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmancasına döyüşərkən yaralanan Daxili Qoşunların hərbi qulluqçusu dünən vəfat edib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Şərq"ə verilən xəbərə görə, çavuş Elşən Quluzadə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmancasına döyüşərkən ağır yaralanaraq, tibb müəssisəsinə yerləşdirilib. Həkimlərin bütün səylərinə baxmayaraq, o bu gün şəhid olub.

Şəhidimizlə vida mərasimində Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov və nazir müavinləri iştirak ediblər.

Şəhid Elşən Quluzadənin cənazəsi polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçularının müşaiyəti ilə doğulub boya-başa çatdığı Füzuli rayonuna aparılaraq orada dəfn ediləcək.

# Yeni tarixi mərhələ başlayır



## Xəzərdə yaranan "Dostluq" bütövlükdə regionun qarşısında yeni geostrateji perspektivlər açır

"Dostluq" yatağının karbhidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması həm Azərbaycanın, həm Türkmənistanın, həm də bütövlükdə regionun qarşısında yeni geostrateji perspektivlər açır. Bu, eyni zamanda, bölgədə yeni əməkdaşlıq platformasının yaradılması, qarşılıqlı faydalı işbirliyinin əhatə dairəsinin genişləndirilməsi baxımından strateji əhəmiyyətə malikdir".

**Bu fikirləri "Şərq"ə politoloq Nurlan Qələndərli deyib. Politoloqun sözlərinə görə, bu sazişin Azərbaycan üçün mühüm geoiqtisadi dividendləri var:** "Məlumdur ki, Azərbaycan neft və qaz ixracatçısıdır. Ölkəmizin təşəbbüsü, liderliyi və moderatorluğu ilə regional və qlobal əhəmiyyətə malik olan mühüm layihələr reallaşdırılıb. Paralel olaraq bu sazişin imzalanması Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətinin artması baxımından da səmərəli və faydalıdır. Eyni zamanda, ölkəmizlə Türkmənistan arasında energetika, nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaq".

**Nurlan Qələndərli bildirib ki, "Dostluq" yatağı üzrə sazişin imzalanması Xəzər dənizi regionunda iqtisadi fəallığın artmasına da mühüm töhfə verəcək:** "Bu, regionda enerji və nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi, sərmayədarların bu proyektlərə cəlb edilməsi üçün önəmlidir. Təbii ki, bütün bunlar Avrasiyanın nəqliyyat-logistika mərkəzinə çevrilmiş Azərbaycanın tranzit potensialının möhkəmlənməsinə də ciddi təkandır". "Dostluq" sazişi Xəzər dənizi regionunda bölgə aktorlarının iştirakı ilə qlobal əhəmiyyətli əməkdaşlığın, etimada əsaslanan dialoqun gücləndirilməsi kontekstində strateji önəm kəsb edən faktordur" - deyən politoloq əlavə edib ki, bölgədə işbirliyi və təhlükəsizlik müstəvisində yeni tarixi mərhələ başlanır".

**Aynurə Pənahqızı**

**Kəlbəcər rayonunun işğal dövründə "Drmbon" adlandırılmış Heyvalı kəndindəki ermənilər yolu bağlayaraq, Azərbaycanın yük maşınlarından ibarət kolonunun qarşısını kəsməklə etiraz aksiyası keçiriblər.**

"Ermənilərin sərbəst hərəkəti üçün Laçın dəhlizi var. Hər etiraz edən erməniyə Azərbaycan torpaqlarından keçid vermək olmaz"



# Ermənilərin Kəlbəcərə səpələnməsi təhlükəsizlik baxımından risklidir

## "Bir müddət sonra istənilən təxribata əl ata bilərlər"

Ermənilər sülhməramlılardan tələb ediblər ki, azərbaycanlılar istifadə etdiyi kimi, onların da Kəlbəcərdən Ermənistana keçən yolla Vardenisə (Basarkeçər) getməyinə şərait yaradılsın. Onların sözlərinə görə, Laçın dəhlizi ilə Basarkeçərə qohumlarını ziyarətə getmək üçün 500 km yol qət etməlidirlər. Halbuki, Kəlbəcərdən cəmi 60 km getməklə həmin əraziyə çata bilərlər. Ermənilər rus sülhməramlılarına şikayət edib ki, guya, azərbaycanlı hərbçilər yoldan keçəndə onlara qarşı alçaldıcı jestlər edir. Ermənilərin yolu kəsərək asayişi pozmalarına etiraz bildirməyən və danışığında qondarma "artsax" ifadəsi işlədən rus general ermənilərə izah edib ki, Heyvalıdan keçən azərbaycanlı hərbçilər yox, tikinti şirkəti əməkdaşlarıdır: "Onlar artıq belə hərəkətlər etməmək haqda xəbərdar olunub. Buradan keçəndə telefon işlətməyi də qadağan etmişəm...". Rus general ermənilərə gec-tez sovet dövründə olduğu



kimi, azərbaycanlılarla dinc yanaşı yaşayacaqlarını izah edərək "Yaşasın Sovet İttifaqı!" söyləyib. Yolun açılmasına gəlincə isə general onun səlahiyyətləri çərçivəsində olmadığını bildirib. Amma məsələni mütləq yuxarı qurumlara çatdıracağına söz verib. Azərbaycan torpağında 30 ilə yaxın qanunsuz məskunlaşmış ermənilər isə problemin həll olunmayacağı təqdirdə bu cür aksiyaları təkrar keçirəcəklərini bəyan ediblər.

**"Cənubi Qafqaz" Sülh və Münaqişə İnstitutunun sədri, Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Kəlbəcərin ermənilər yaşayan Drmbon kəndində baş verən etiraz müəyyən suallar doğurur. Analitik etirazların arxasında siyasi səbəblərin olduğunu düşünür:** "Sirr deyil ki, Kreml Qarabağda istədiyi vaxt ermənilərin provakasiyalarını təşkil edə bilər. Sülhməramlılar bölgədə süni gərginlik yaratmaqla hərbi kontingentin sayını artırmağı planlayır. Ağdərədən Kəlbəcərə bütün ərazilər Azərbaycana məxsusdur. Vətəndaşlarımız, tikinti şirkətlərimiz, o cümlədən hərbçilərimiz istənilən bölgədən keçə bilərlər. Kimsə buna qadağa qoya bilməz. Amma həmin yolların ermənilərin istifadəsinə verilməsi təhlükəlidir. Onların Kəlbəcər ərazisinə səpələnməsi təhlükəsizlik baxımından risklidir. Bir müddət sonra istənilən təxribata əl ata bilərlər. Ermənilərin sərbəst hərəkəti üçün Laçın dəhlizi var. Hər etiraz edən erməniyə Azərbaycan torpaqlarından keçid vermək olmaz. Ermənilərin absurd şərtlərini qəbul etməməliyik. Xüsusən, belə tələblərin arxasında siyasi aspektlərin olduğu şübhə doğurmursa, güzəştə getmək yolverilməzdir".

**İsmayıl Qocayev**

# Fevralda əfv fərmanı gözlənilir

## Novella Cəfəroğlu: "Vətən müharibəsinin başlaması əfv və amnistiya məsələsini bir qədər arxa plana keçirdi"

**Əfv Məsələləri Komissiyasının üzvü, millət vəkili Zahid Oruc bildirib ki, Azərbaycan Prezidenti yanında komissiyanın iclasının keçirilməsi üçün hazırlıqlar gedir. Parlament üzvü qeyd edib ki, əfvlə bağlı həddən artıq müraciətlər edilib.**

Z.Oruc Əfv Komissiyasının yeni tərkibinin formalaşdığını da diqqətə çatdırıb: "Bu sahədə müəyyən yeniliklər də gözlənilir. Cəza sisteminin humanistləşdirilməsi, əfv addımlarını əldə rəhbər tutaraq Əfv Komissiyasının yaxın zamanlarda işinə aktiv şəkildə keçməsi və insanların işinə baxılmasına qərar veriləcək".



**"Əslində ötən ilin dekabrında əfvin olacağı ehtimalı var idi, artıq müharibə bitib"**

Cənab Prezidentin məhbuslarla bağlı humanizminin dəfələrlə şahidi olmuşuq. Məlumdur ki, qarşıdan Novruz bayramı gəlir. Bəs, bayramda əfv ola bilərmi?

**İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğlu "Şərq"ə açıqlamasında bu suala aydınlıq gətirib:** "Bəli, əfvin olacağı gözlənilir. Vətən müharibəsinin başlaması normal olaraq əfv və amnistiya məsələsini bir qədər arxa plana keçirdi. Əslində ötən ilin dekabrda əfvin olacağı ehtimalı var idi. Artıq müharibə bitib. Yəqin ki, fevral ayından etibarən əfv prosesi başlanacaq. Əfvlə birlikdə amnistiyanın olacağı da ehtimal edilir. Ümid edirəm ki, fevral ayından etibarən Novruz bayramına qədər, bəlkə də, bir az tez zamanda əfv olsun".

Hüquq müdafiəçisi bildirib ki, istənilən halda əfv və amnistiya müsbət hadisədir: "İnsanlar azadlığa buraxılır, ailələri ilə qovuşur. Bu cür humanist addımları hər zaman dəstəkləmişik. Bizim də planımızda var ki, bir araya gələrək bu barədə müzakirə aparaq".

**Yeganə Bayramova**




# Koronavirusdan ölüm halı azaldı

## Azərbaycanda daha 770 nəfər sağalıb, 218 nəfər yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 218 yeni yoluxma faktı qeydə alınıb, 770 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 228 246 nəfər koronavirus infeksiyasına yoluxub, onlardan 218 387 nəfər müalicə olunaraq sağalıb, 3 053 nəfər vəfat edib, aktiv xəstə sayı 6 806 nəfərdir.

Ölkədə son sutka ərzində 5309, hazırkı dövrədək isə 2341807 test aparılıb.

# Məktəblərdə qış tətili olacaq

**Yanvarın 27-də qış tətili başlayacaq.**

APA-nın məlumatına görə, bunu "Xüsusi karantin rejimi dövründə məktəbdaxili qiymətləndirmənin müvəqqəti qaydaları" barədə məlumat verən Təhsil Nazirliyinin təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqubova bildirib. Onun sözlərinə görə, 1 fevralda ikinci yarımillik başlayır.

# Bakı metrosunun ali məktəblərlə eyni vaxta açılması gözlənilir



**Azərbaycan hökumətində orta ümumtəhsil müəssisələri ilə yanaşı, ali təhsil müəssisələrinin də açılması ilə bağlı müzakirələr gedir.**

"Report"un əldə etdiyi məlumata görə, universitetlər fevralın 15-dən açıla bilər.

Bununla belə, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarından asılı olaraq, sözügedən məsələnin martın 1-nə qədər uzanacağı istisna deyil.

Həmçinin ötən il oktyabrın 19-dan bağlı olan Bakı metrosunun da ali təhsil müəssisələri ilə eyni vaxta açılması gözlənir.

"Bakı Metropoliteni" QSC-nin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov "Report"a açıqlamasında isə bildirib ki, təmsil etdiyi quruma metronun açılması ilə bağlı hər hansı rəsmi qərar daxil olmayıb.

Xatırladaq ki, Azərbaycanın orta məktəblərində tədris prosesinin fevralın 1-dən bərpa olunması gözlənilir.

# Sevinməyə dəyməz

## Pandemiya gələcəkdə uşaqların görmə qabiliyyətinə təsir göstərəcək

Pandemiya uşaqların səhhətində bir sıra problemlərə səbəb olacaq. Koronavirus azyaşlılardan yan keçir deyə, sevinirik. Amma fəsadları qarşıdakı illərdə özünü mütləq göstərəcək. Məsələn, görmə qabiliyyətində. Türkiyəli həkimlər həyəcan təbli çalır ki, onlayn dərslərə qoşulan uşaqlar görmə zəifliyi problemi yaşaya bilər. Çünki gün ərzində bir neçə saat onlayn dərslərə qoşulma göz sağlamlığını təhdid edir.



**Türkiyəli həkimlərin həyəcanını bizim həkimlər də təsdiqləyir**

**Türkiyəli həkim, göz xəstəlikləri üzrə uzman doktor Əlvan Yalçın Türkiyənin "ATV Səhər" proqramında valideynlərə bəzi tövsiyələr verib. "Dünənədək uşaqlara ekrandan uzaq durun, deyirdik. Bu gün isə uşaqlar saatlarla kompüter ekranı, planşet qarşısında əyləşmək məcburiyyətindədirlər. Belə vəziyyət gələcəkdə uşaqlarda görmə zəifliyi xəstəliyini yüksəldə bilər" söyləyən həkim, onlayn dərslərin gözlərə mənfi təsirini azaltmağın yollarını anladıb:**

- Kompüter qarşısında çox əyləşmək, fərqi yoxdur uşaq dərsə kompüterlə qoşulur, smartfon və ya planşetlə, ekrana uzun müddət fasiləsiz baxmaq gözlərdə quruluq, qaşınma, allergiya, kiprik iltihabı, qızartı, sulanma kimi hallar yaradır ki, bunlar da zaman keçdikcə görmə qabiliyyətinin zəifləməsinə, müxtəlif göz xəstəliklərinə səbəb ola bilər. Ata-analara məsləhət görərdik ki, uşaq onlayn dərs çalışırsa, ekranla arasında 1 - 1.5 metr ara məsafəsinin olmasına diqqət etsinlər. Bu ölçülər ekranın ölçüsünə görə dəyişə bilər. Əgər uşaq böyük ekran qarşısında əyləşirsə, gözün istiqaməti üzrə baxış bucağı 15 dərəcənin altında olmalıdır. Pəncərədən, ya da yuxarıdan ekrana işıq düşməsinin qarşısı alınmalıdır, əks halda ekran həddindən artıq işıqlanacaq və bu da uşağın ekrana daha zəndlə baxmasına səbəb olacaq ki, nəticədə göz daha tez yorulacaq, quruluq, qaşınma əlaməti də artacaq. Uşağın əyləşdiyi oturacaq da rahat olmalı, qarşı tərəfə çox əyilmənin qarşısı alınmalıdır. Uşaq elə əyləşməlidir ki, dizlər 90 dərəcədə bükülmüş olsun. Lazım gələrsə uşağın qolunun altına əlavə masa və ya kətil də yerləşdirmək olar. Bu, uşağın ekran qarşısında rahat əyləşməsini təmin edər. Gözlüklərdən istifadə etmək olar. Daha uyğunu mavi filtrli gözlüklərdir.

**Pediatr Vaqif Qarayev də "Şərq"ə açıqlamasında onlayn dərslərin uşaqlarda görmə zəifliyinə səbəb ola biləcəyini istisna etmədi:**

- Son vaxtlar uşaqların kompüter-planşetə çox baxması səbəbindən gözdə problemlər yaranır. Xüsusilə görmə zəifliyi halları artıb. Yeni problem təkcə onlayn dərslə bağlı deyil. Ümumiyyətlə, son illərin problemidir. Dərsə gəldikdə, məhdudiyyət qoymaq da mümkün deyil. Oxumalıdı da bu uşaqlar. Amma deyə bilərəm ki, bəli, görmə qabiliyyəti ilə bağlı problemlər qaçılmaz olacaq. Valideynlər mümkün qədər diqqətli olsalar, bu problemlərdən qaçmaq olar. Görürsən uşaq 2 saat onlayn dərsə qoşulub, dərs bitən kimi də planşetdə, smartfonda oyun oynayır, nə bilim, müxtəlif videolar izləyir, telefon əlindən düşmür. Belədə əlbəttə, göz də yorulacaq, beyin də. Dərsi də yaxşı qavramayacaq. Yorğun beyin fənni necə qavraya bilər?!. Gərək valideynlər uşaqlara nəzarət etsin. Müəllimlər də onlayn dərs keçirlərsə, arada fasilə versinlər. Göz yorğunluğunu azaltmaq, beynə istirahət vermənin müxtəlif üsulları var. Mütəxəssislər bilir bunları. Məsələn, gözlərə istirahət vermək üçün azı 10 dəqiqə uzaq məsafəyə baxmağı tövsiyə edirlər. Yaşıllığa, ağaclara, axar suya. Kimin yan-yörəsində sakitlik gətirəcək nə varsa. Adi dibçəklər, güllər, çiçəklər, bəzən insanı çox sakitləşdirir, onlara baxanda gözlər istirahət edir. Müəllimlər də buna çalışmalıdır. Elə edək ki, pandemiyadan sonra uşaqlarda sağlıq problemləri artmasın. Dərs zamanı kompüter qarşısında düzgün əyləşmək, beli əyməmək, ekrana yaxın oturmamaq da vacib şərtlərdir. Uşaqları vaxtaşırı göz müayinəsindən keçirmək lazımdır ki, hər hansı problem yaranıbsa, vaxtında aradan qaldırılsın.

**Məlahət Rzayeva**

# Rusiya sülhməramlıları Qarabağa köçürdüyü ermənilərin sayını şişirdir



## Elman Məmmədov: “Orada yaşayan ermənilərin sayı Qarabağ azərbaycanlılarının sayından 2-3 dəfə azdır”

Rusiya Müdafiə Nazirliyi hər gün Ermənistandan Qarabağa köçürülən ermənilərin sayını açıqlayır. Rəsmi məlumatlara əsasən, noyabrın 10-dan bu günə qədər 50 mindən çox erməni Xankəndi və digər Azərbaycan ərazilərinə köçürülüb. Onlar Rusiya sülhməramlılarının müşaiyəti ilə Laçın dəhlizindən keçərək Qarabağa yerləşdirilir.

Lakin açıqlanan statistika ilə bağlı çoxsaylı suallar qalmaqdadır. Belə ki, rəsmi İrəvan 44 günlük müharibə zamanı 90 mindən çox Qarabağ ermənisinin Ermənistana getdiyini açıqlamışdı.

Beləliklə, hərbi əməliyyatların başa çatmasından keçən 70 gün ərzində onların yarıdan çoxunun Qarabağa qayıtması iddia olunurdu. Reallıqda isə vəziyyətin tamamilə fərqli olduğu görünür.

Qarabağda qanunsuz şəkildə məskunlaşan ermənilər leqal və qeyri-leqal yollarla Ermənistanda qalmağa, bir hissəsi isə ”qaçqın” statusu ilə Qərb ölkələrində sığınacaq almağa çalışırlar. Mənbələr Paşinyan hökumətinin səylərinə baxmayaraq, 15 mindən çox erməninin Fransa, ABŞ, Almaniya, İtaliya və s. ölkələrin səfirliklərinə sığınacaq üçün müraciət etdiyi barədə xəbərlər yayır. Xüsusən, Fransa Prezidenti E.Makronun göstərişi ilə ölkənin İrəvandakı səfirliyi Qarabağ ermənilərinin qaçqın statusu ilə Fransada sığınacaq almasına şərait yaradıb. Nəticədə isə Qarabağa qayıtmaq bir yana, Ermənistanda yaşamaq istəməyən Qarabağ ermənilərinin sayı kəskin artıb.

Paşinyan hökuməti pandemiya şəraitinin zəifləyəcəyi və sərhədlərin tam açılmasından sonra ölkədən böyük insan köçünün başlanmasından narahat olur. Buna görə də ”ermənilərin qayıdışı fonu” yaratmaq üçün bölgədəki sülhməramlı kontingenti ilə birlikdə reallıqda olduğundan qat-qat çox sayda ermənininin Qarabağa qayıtması barədə məlumat verir. Müstəqil analitiklər Rusiya Müdafiə Nazirliyinin açıqladığı 50 min yerinə, əslində, Dağlıq Qarabağa cəmi 27 min ermənin müxtəlif yollarla qaytarıldığını, onların da 11 min nəfərinin real vəziyyətlə tanış olduqdan sonra Ermənistana döndüyünü bildirir. Real rəqəmlərə əsasən təxmin etsək, hazırda Qarabağda 16 min erməni yaşayır ki, onların da əksəriyyəti Xankəndində məskunlaşıb.

Beləliklə, Qarabağa zorla köçürülən ermənilər geri qaçmaqdadırlar.

**Sözügedən mövzu barədə söz açan millət vəkili və siyasətçi Elman Məmmədov ”Şərq”ə açıqlamasında ermənilərin sülhməramlılarla birgə hazırladığı yalançı statistikanın gerçək tərəflərindən də bəhs edib:** ”Məlumat üçün nəzərinizə çatdırmaq istəyirəm ki, Sovetlər dönəmində əhali siyahıya alınan zaman, 1989-cu ildə Qarabağın əhalisi 180 min nəfər göstərilirdi. Guya onların 120 mindən artığı ermənilər, qalan hissəsi isə azərbaycanlılardan ibarət idi. Təxminən 1 faiz isə qeyri millətlərin nümayəndələri idi. Təbii ki, bu, ermənilərin hesablamalarına görə idi. Ondan əvvəl və sonrakı dövrlərdən bu günə qədər ermənilər Qarabağda yaşayanların sayını həmişə şişirdilmiş rəqəmlərlə göstəriblər. Onlar müharibəyə qədərki dövrdə Qarabağda yaşayan əhalinin sayını 150-160 nəfər min deyirdilər. Əslində isə orada yaşayan ermənilərin 60 mindən çox olmadığı müxtəlif məlumatlarda öz əksini tapırdı. Müharibə ərzində də onların əksər hissəsi başını götürüb qaçdı.

Yanvar ayının 11-də hər üç ölkənin rəhbərlərinin görüşündə də Rusiya Federasiyasının Prezidenti V.Putin də dedi ki, tərəfimizdən sülhməramlıların köməyi ilə Qarabağa 48 min nəfər qaytarılıb. Əlbəttə ki, ermənilər qaytarılıb. Ancaq o da şişirdilmiş rəqəmdir. Bu rəqəm olduqca azdır.

Sadəcə olaraq, bununla həm Rusiya tərəfi, həm Ermənistan, həm də Qarabağda olan separatçı quldur dəstələri göstərmək istəyirlər ki, guya, Qarabağda erməni əhalisi çoxdur. Burada söhbət 80-100 min insandan gedir. Həqiqətdə isə belə deyil. Gerçək rəqəmlər isə göstərilən rəqəmin heç üçdən biri qədər deyil.

İkinci bir tərəfdən, bizi bu saylar heç cür narahat etmir. Çünki ermənilər 1992-ci ildə Qarabağı işğal edən zaman oradakı Azərbaycan əhalisinin sayı 50-60 min qədərə yaxın idi. Bu gün isə rəsmi rəqəmlər göstərir ki, təkcə Dağlıq Qarabağdan olan azərbaycanlıların sayı 90 minə çatır. Bu statistikanı istənilən şəxs əldə edə bilər.

Yəni onlar Ermənistanın əhalisini də Qarabağa yığsalar bizim sayımız onlardan çox olacaq. Bu, məsələnin bir tərəfidir”.

**Millət vəkili post-müharibə dövründə Qarabağa köçürülənlərin kimlər olduğunun hələ qeyri-məlum olduğunu bildirdi:** ”Rusiya sülhməramlılarının Qarabağa köçürüb yerləşdirdikləri şəxslər kimlərdir və hara vətəndaşlarıdır? Onlar həqiqətən də əslən qarabağlıdırlarmı? Yaxud da Ermənistandan və ya xarici ölkələrdən köçürülüb ora yığılıblarmı? Bunu isə Azərbaycan dövləti müəyyən edəcək. Bizim bu işlə məşğul olan müvafiq qurumlarımız orada kimin kim olduğunu bir-bir araşdıracaq. Onların orada yaşamaq hüququnun olub-olmadığını da biz müəyyən edəcəyik. Necə ki, cənab prezident müraciətlərinin birində bir fikir bildirdi və dedi ki, nəyi necə etmək, nə zaman etmək lazımdırsa, onu mən bilirəm. Eləcə də Ali Baş Komandanımızın rəhbərliyi altında məqamı çatanda məhz biz müəyyən edəcəyik ki, bu gün orada məskunlaşdırılanlar kimlərdir və həmin şəxslərin bizim ərazilərimizdə yaşamaq hüququ var, yoxsa, yoxdur.

Bir daha qeyd etmək istəyirəm ki, orada yaşayan ermənilərin sayı Qarabağ azərbaycanlılarının sayından 2-3 dəfə azdır”.

**Ağarza Elçinoğlu**

# ABŞ kosmosda "super güc" statusunu itirir

## İlqar Vəlizadə: “İllərdir üç supergüc arasında kosmos üzərində yarışma gedir”



**Pentaqon rəhbərliyinə namizəd olan Lloyd Ostin bildirib ki, Rusiya və Çin ABŞ-ın kosmosdakı maraqlarına ciddi təhlükə yaradır.**

Onun sözlərinə görə, kosmos böyük güclərin rəqabət meydanıdır: ”Çin və Rusiyanın kosmosda fəaliyyəti ABŞ-ın təhlükəsizlik sahəsində milli maraqları üçün ciddi və artan təhlükə təşkil edir”.

General həmçinin Rusiyanı ABŞ-ın kosmosdakı əsas rəqibi adlandırıb.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan politoloq İlqar Vəlizadənin sözlərinə görə, artıq bir neçə ildir ki, Çin, Rusiya və ABŞ arasında kosmos üzərində yarışma gedir:** ”Mübarizə müxtəlif texnologiyaların kosmosda istifadə olunması, kosmosda orbitlərdən istifadə, müxtəlif avadanlıqların istehsalı ilə bağlıdır.

Bəzi hallarda bu ölkələr orbitlərdən istifadə məsələsi üzrə mübahisə aparırlar.

Çin son illərdə kosmik proqramların tətbiqini sürətləndirib. Bunlar peyklərin buraxılması, tədqiqat məqsədilə uzunmüddətli uçuşların tətbiq edilməsi ilə bağlı proqramlardır.

Vaxtilə Çinin imkanları yox idi, Rusiya zəifləmişdi, ABŞ isə kosmosda supergüc ölkə idi. İndi isə vəziyyət dəyişib. Bu da müəyyən dərəcədə rəqabət yaradır. Yəni Amerika Çin və Rusiya ilə potensial baxımından işləyə bilsə də, bunu etmir”.

**Yeganə Bayramova**

# Paşinyan istəyinə nail ola bilər

## “Qarabağ klanı”nın siyasi səhnədən uzaqlaşacağı ehtimalı böyükdür

### Havadakı sis-duman dağıldıqca, erməni cəmiyyəti prosesləri daha aydın görməyə başlayır

Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı müxalifətlə erkən parlament seçkisinin tarixini müzakirə etməyə hazır olduğunu söyləyib. Paşinyan müxalifətə səslənərək bildirib ki, əgər onu istəmirlərsə, seçki keçirərək ən layiqli baş naziri seçsinlər. Məsələ ondadır ki, müharibədən sonra baş nazirə qarşı çıxan müxalifət Paşinyanla açıq seçkiyə girməyə razı deyil.

Onların məqsədi baş naziri seçkisiz, etirazçı kütlələrin təzyiqi ilə hakimiyyətdən devirərək müvəqqəti hökumət təsis etməkdir. Ekspertlərin fikrincə, müxalifət seçki nəticəsində hökuməti formalaşdırmaq üçün kifayət qədər səs toplamayacağını yaxşı bildiyi üçün növbədənkənar seçkiyə yaxın durmur. Sadəcə ”İşıqlı Ermənistan” müxalifət fraksiyasının deputatı Armen Yegizaryan partiyasının növbədənkənar seçkiyə hazır olduğunu bildirib. Nikol Paşinyan isə ”parlament müxalifətinin onun 2021-ci ildə seçki keçirilməsi təklifini rədd etməsinə” təəccübləndiyini deyib. Baş nazir vurğulayıb ki, hakim qüvvənin təkcə özü üçün növbədənkənar parlament seçkisi keçirməsi məntiqli deyil. Paşinyan əlavə edib ki, bu məsələ hələ də gündəmdədir və müzakirələr davam edir.

**Düşmən ölkədəki vəziyyəti ”Şərq”ə dəyərləndirən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli bildirib ki, zaman keçdikcə, Ermənistandakı mənzərə daha aydın görünür. Siyasi şərhçinin sözlərinə görə, Paşinyana qarşı meydanı qızışdıran ”Qarabağ klanı” və onlara yaxın olan indiki Prezident Armen Sarkisyandır:** ”Serj Sarkisyan və Robert Koçaryan cütlüyü və onların təsiri altında olan siyasi qruplaşmalar ölkədə anti-Paşinyan əhval-ruhiyyəsini artırmağa çalışırlar. Bu mübarizə müharibədən dərhal sonra



effekt verirdisə, artıq etiraz dalğası səngiməyə başlayır. Havadakı sis-duman dağıldıqca, erməni cəmiyyəti prosesləri daha aydın görməyə başlayır. Yerli ermənilər ”Qarabağ klanı”nın liderlərinə nifrət edirlər. Açıq-aşkar bildirirlər ki, Qarabağ ermənilərinin davası Ermənistanı uçurumun kənarına gətirib. Anlayırlar ki, Paşinyan hökumət başçısı kimi məğlubiyyətə uğrayıbsa, uduzan ordunun memarları Sarkisyan və Koçaryandır. Deməli, ölkənin məğlub duruma düşməsinin də səbəbkarı həmin qruplaşmadır. Paşinyan etirazların səngidiyini, xalqın onun tərəfində olduğunu sezdiyi üçün müxalifətə meydan oxuyur, onları növbədənkənar seçkiyə çağırır. Getdikcə Paşinyan ”hər şeyin günahkarı olmaqdan” xilas olur, ictimai rəy lehinə dəyişir. Müharibə istəməyən erməni ekspertlər də Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurulmasının zəruriliyindən danışırlar. İndiki halda növbədənkənar seçkilər baş tutsa belə Paşinyan böyük səs fərqi ilə rəqiblərini məğlub edəcək. Hələlik iki tərəf də mübarizəsini sürdürür. Ancaq yaxın günlərdə ”Qarabağ klanı”nın siyasi səhnədən uzaqlaşacağı ehtimalı böyükdür. Paşinyan da məhz bunu istəyir”.

**İsmayıl Qocayev**

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi





Qədim tarixi ənənələrə malik Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz dostluğa, ənənəvi qardaşlığa söykənən möhkəm təməllər üzərində qurulub. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Son aylar baş verən hadisələr bir daha təsdiq etdi ki, iki qardaş ölkə arasındakı qırılmaz əlaqələr daha möhkəm və sarsılmazdır. Xüsusilə son vaxtlar Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlıq istiqamətində xüsusi bir canlanma müşahidə edilir. Bu günləri həmçinin Azərbaycanla Türkiyə arasında birgə media platforması yaradılması, xəbər, mütəxəssis və fikir mübadiləsi həyata keçirmək, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılması genişləndirilməkdədir.

ki medianın bir kommersiya strukturu kimi fəaliyyət göstərməsi və qazanc əldə etməsi üçün əsas şərtlərdən biri reklam bazarının liberallaşdırılmasıdır. Məsələn, reklamların və sosial reklamların ədalətli bölünməsi və s. Bu aspektdən də Türkiyədən bu məsələlərlə bağlı öyrənə biləcəyimiz çox məqamlar var. Amma bu prosesin inzibati metodlarla həyata keçirilməsi düşünürəm ki, mümkün deyil. Sa-

sun. Biz Türkiyə mediasına nə vəd edə bilərik ki, onlar üçün maraqlı olsun? Məhz bu barədə düşünmək lazımdır. Əvvəla nə vəd verəcəyimizi düşünməliyik. Onlar üçün hansı aspektdən maraqlı olacağımızı gündəmə gətirməliyik. Hətta gələcəkdə bu məsələlər müzakirə olunsa və həllini tapsa, bir sıra problemlər hətta gələcəkdə ortaq media qurumlarının yaradılması perspektivi də kifayət edir. Düşünürəm ki, bu media platformasının ciddi şəkildə işlənilməsi, həyata

xəbər törəmə materialların çəkilişi ilə bağlı işlərin daha da təkmilləşməsinə ehtiyac var. Məsələn, daha çox təlimlər və kadrların hazırlanması ilə bağlı iş birliyi çox vacibdir. Yəni birgə təlimlər və hazırlıqlarla bağlı onların çox böyük faydaları ola bilər. Məni işin bu istiqaməti maraqlandırır. Sözsüz ki, digər birgə proyektlər, layihələr də mümkündür. Bu, türk xalqlarının mədəniyyəti, tarixi ilə bağlı ola bilər. Sənədli filmlərin, silsilə sənədli filmlərin çəkilişi və ma-

# Ortaq media platformasına ciddi ehtiyac var

## “Bir çox məsələlərdə Türkiyənin təcrübəsindən yararlana bilərik”

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

Televiziyadan kino sektorunadək bütün sahələr üzrə birgə layihələrin həyata keçirilməsi, mütəxəssis mübadilə proqramlarının hazırlanması, eləcə də texnologiya sahəsində əməkdaşlıq ilk olaraq hər iki ölkəyə qarşı həyata keçirilən qaralama kampaniyası ilə mübarizədə də əhəmiyyətli rol oynayacaq. Artıq Azərbaycan-Türkiyə media platformasının əhatə dairəsi müəyyənləşib. Bu barədə ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihəsində bildirilib.

Sənəddə qeyd edilib ki, tərəflər yaradılacaq birgə media platforması çərçivəsində iki ölkə arasında sağlam media əlaqələri şəbəkəsinin infrastrukturunun yaradılması aşağıdakı üsullarla həyata keçiriləcək:

- Media sahəsində bilik, təcrübə və mənbələrin paylaşılması;
- İki ölkənin media sahəsində fəaliyyət göstərən rəsmi qurumları ilə birgə işlərin aparılması;
- Beynəlxalq arenada rast gəlinən dezinformasiyaya qarşı birgə mübarizə aparılması və dünya ictimaiyyətinin düzgün məlumatlandırılması;
- Televiziya və kino sahəsində ortaq işlərin həyata keçirilməsi;
- Müxtəlif media və sektor təmsilçiləri ilə tərəfdaşlığın qurulması;
- Peşə təhsili və mübadilə proqramlarının təşkil edilməsi;
- İki ölkənin fikir öndərləri arasında rabitə körpüsünün qurulması.

Sənəddə bildirilir ki, Anlaşma Memorandumunun qüvvəyə minməsindən sonrakı 3 ay ərzində Türkiyə və Azərbaycan arasında media platformasının həyata keçirilməsi üzrə məqsədyönlü, əhatəli planın hazırlanması üçün birgə işçi komissiya yaradılacaq.

**Mövzu ətrafında fikirlərini ”Şərq”lə bölüşən ”Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli bildirib ki, platforma çərçivəsində müxtəlif media və sektor təmsilçiləri ilə tərəfdaşlığın qurulması mühümdür. Tanınmış media eksperti əlavə edib ki, bu yöndə qarşılıqlı səfərlərin təşkili çox əhəmiyyətlidir:** ”Bu səfərlər ilk növbədə praktik məcrada olmalıdır. Yəni məqsəd ondan ibarət olmamalıdır ki, kimlərsə turist səfərlərinə gedib vaxtlarını itirsinlər. Digər tərəfdən qarşılıqlı əlaqələrin inkişafı üçün forumların keçirilməsinin də məqsədəuyğun olduğunu düşünürəm. Çünki media platforması çərçivəsində əməkdaşlıq hər iki tərəfin marağında olmalıdır. Media qurumları arasında əgər hansısa əlaqələr qurulacaqsa və inkişaf etdiriləcəksə, ortaq məqamlar olmalıdır. Məsələn, hər iki tərəf üçün informasiya siyasətində hansı amillər əsas götürülür, hansı məqamlar prinsipal əhəmiyyət kəsb edir. Bunlar xüsusilə önəmlidir. Şübhəsiz ki, bu gün Azərbaycan mediası ilə Türkiyə mediasının gücünü və potensialını müqayisə etmək mümkün deyil. Qənaətimə görə, ilk növbədə daha çox Azərbaycan mediasının inkişafına təkan verəcək amilləri bu prosesdə nəzərə almaq lazımdır”.

E.Mirzəbəyli vurğulayıb ki, daha çox birgə təlimlərin keçirilməsi vacib şərtlərdən biridir: ”Əlaqələrin qurulmasında bu amil də əhəmiyyətli rol oynaya bilər. Necə ki, maddi-texniki bazanın gücləndirilməsi və kommersiya fəaliyyətinin inkişafı amilləri. Media platforması ilə yanaşı Türkiyədə bizim öyrənəcəyimiz çox məqamlar var. Çün-

dəcə olaraq, burada tənzimləyici bir funksiya həyata keçirilməlidir. Ola bilsin ki, bu, Media İnkişafı Agentliyi tərəfindən gerçəkləşdiriləcək. Amma tənzimləyici proses olmalıdır və əlaqələr qurulmalıdır. Nəzərinizə çatdırım ki, bundan öncə də Azərbaycan və Türkiyə mediaları arasında əlaqələrin qurulması üçün kifayət qədər cəhdlər olunub. Ayrı-ayrı media qurumlarının rəhbərləri tərəfindən belə addımlar atılıb. Hələ 2020-ci il-

keçirilməsi, bütövlükdə Türkiyə media platforması üçün çox ciddi bir bağ rolunu oynaya bilər. Çünki ümumiyyətlə, türk dövlətlərinin əməkdaşlığı prosesini sürətləndirən amillərdən biri Azərbaycan-Türkiyə əməkdaşlığının perspektivli olması, belə deyək ki, özünü sübuta yetirməsi olub. Bu özünü enerji layihələrində, iqtisadi əlaqələrdə və s. büruzə verib. Bu aspektdən də media platformasında da eyni tenden-

**"3 ay ərzində Türkiyə və Azərbaycan arasında media platformasının həyata keçirilməsi üzrə işçi komissiya yaradılacaq"**

lərdən başlayaraq bu proseslər gedir. Həmin insanlar Azərbaycanla Türkiyənin ortaq media platformasında birləşməsini və iki ölkənin bütün sahələrdə olduğu kimi media sahəsində də yaxınlaşmasını ürəkdən arzulayırdılar. Amma təəssüflər olsun ki, bəzən ən gözəl ideyalar belə bəzi şəxslər tərəfindən xüsusi olaraq məqsədyönlü şəkildə mənimsənilir və onların həyata keçirilməsinə imkan verilmir. Yəni formal bir xarakter daşıyan ayrı-ayrı platformalar və təchizatlar yaradılıb. Təchizatların da məqsədi əslində inkişafdan yox, daha çox fərqli maraqlardan ibarət olub. Ümid edirəm ki, indiki şəraitdə ortada çox ciddi tərəf var və bu, parlament səviyyəsində paraflanan sənəddir. Şübhəsiz ki, çox önəmli sənəddir. Azərbaycan tarixində indiyə qədər belə bir fakt olmayıb. Bu əslində sənədin özünün ciddiliyindən xəbər verir”.

Tanınmış media eksperti qeyd edib ki, Azərbaycan-Türkiyə media əlaqələrinə mane olan bu amillərlə yanaşı digər amil isə Azərbaycan mediasının zəifliyi olub: ”Media qurumları ən azı bərabər səviyyəyə yaxın bir platformada olmalıdırlar ki, onların əməkdaşlıq perspektivləri ol-

siyaların - səmərəlilik, qarşılıqlıq, faydalılıq elementlərinin önə çıxmasına ehtiyac var”.

**Tanınmış media eksperti Zeynal Məmmədli ”Şərq”ə açıqlamasında Azərbaycan-Türkiyə Birgə Media Platforması çərçivəsində televiziya və kino sahəsində ortaq işlərin həyata keçirilməsinin vacibliyini qeyd edib.** Ekspert diqqətə çatdırıb ki, bu günləri televiziya sahəsində çox ciddi qüsurlar var: ”Azərbaycan və Türkiyə arasında birgə media əməkdaşlığına çox ciddi ehtiyac var. Qeyd edim ki, operatorların, televiziya rejissorlarının, reportyorların, şərhçilərin hazırlanması ilə bağlı özəlliklə TRT böyük təcrübəyə sahibdir. Ümumiyyətlə, Türkiyə televiziyaları bu sahədə kifayət qədər peşəkar praktikaya malikdirlər. Burda məhz təsdiq-təlim baxımından işbirliyi ola bilər. Bədii televiziyaya gəlincə, bu günləri dövlətimiz tərəfindən televiziya seriallarına pullar ayrılır. Məsələn, set çəkilişlərinə, situasiya komediyalarına, ümumilikdə tarixi seriallara. Lakin istənilən keyfiyyət əldə olunmur. Bunlarla bağlı Türkiyənin təcrübəsindən yararlanmaq mümkündür. Digər tərəfdən televiziyada xəbər və

terialların hazırlanması ilə bağlı ciddi iş birliyi qurmaq lazımdır”.

*Z.Məmmədli bildirib ki, bu günləri televiziyalarda peşəkarlıqlarla bağlı axsamalar var:* ”Efir məkanımızda efir, danışıq və görüntü dili, sözlərin ifadə olunması ilə bağlı ciddi qüsurlar mövcuddur. Habelə, davranış və təcrübə ilə bağlı da. Görürsən ki, məsələn, 20-22 yaşında bir telexəbər aparıcısı hər hansı bir hadisəyə münasibət bildirir. Bu zaman onun ifadələri və səs tonu xoş təsir bağışlamır, yəni bunun nə həyat təcrübəsi var ki, birdən-birə efir məkanındadır. Onun reportyor olan vaxtı efirdə aparıcılıq etməsini düzgün hesab etmirəm. Yəni bizdə efir yaşı problemi də var. Bu məsələlərdə də Türkiyənin təcrübəsindən ciddi faydalana bilərik. Televiziyalarda efir yaşı deyilən bir anlayış mövcuddur. 30-35 yaşına kimi sən televiziyada reportyorsan, yəni hələ xəbər dalınca qaçmalısan, nədəsə ixtisaslaşmalısan, öyrənməlisən və ondan sonra efirə çıxa bilərsən. Amma bizdə bilmirsən ki, bu aparıcıların hansı moderatordur. Yəni heç bir tərəfə və təbliğata yol verməden aparacaq. Bizdə efir aparıcıları hamısı bir-birinə çox bənzəyir. Birinin elementləri hamısında var. Elə qəribə bir qarışıq yaranır ki, çaşıb qalırsan ki, bu nədir? Bu baxımdan bizdə həm təhsil, həm seçilmək baxımından, həm də dünyagörüşlü şəxsiyyət olmaq baxımından çox ciddi nöqsanlar aşkarlanmaqdadır. Türkiyədəki seçim təcrübəsi bizə böyük fayda verə bilər. Bundan başqa bizdə prodüser məktəbi yoxdur. Prodüser məktəbinin formalaşmasında qardaş ölkənin təcrübəsindən ciddi istifadə edə bilərik. İnanıram ki, birgə media platforması sahəsində mediamızda çox ciddi uğurlar əldə edəcəyik”.

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Hamı inanır

## Tezliklə Qarabağdakı dini-tarixi abidələrimiz bərpa ediləcək



*Uzun müddət erməni təcavüzkarlarının işğalına məruz qalmış Qarabağ torpağı artıq azaddır. Düşmən 30 il ərzində burada yerləşən şəhər və rayonlarımızı, yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətlərimizi talan edib, həmin ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi viran qoyub. Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağdan bir iz belə qalmayıb.*

Mənfur düşmənin illərdir soyub-taladığı diyarı dirçəltmək, ona nəfəs vermək üçün həmin torpaqlarda yenidənqurma işlərinə başlanılıb. Bərpası vacib olan yerlər sırasında dini abidələrimiz, məscidlərimiz də var. Ermənilər Qarabağdakı dini-tarixi əhəmiyyətə malik olan bütün abidələri, xüsusilə də məscidlərimizi bərbad vəziyyətə salıb. İşğal müddətində onlar məscidlərimizdən tövlə kimi istifadə edib. Heydər Əliyev Fondu müqəddəslik rəmzi olan dini abidələrimizin bərpası üzrə dekabr ayında layihəyə start verib. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması nəzərdə tutulub.

**Bu məsələ ilə bağlı fikirlərini "Şərq"lə bölüşən ilahiyyatçı-alim Hacı Atif İsmayılov qeyd edib ki, işğal olunmuş ərazilərimizdə erməni faşizminin törətdiyi vəhşiliklər, o cümlədən ibadətgahlarımızın dağıdılıb, içində donuz saxlanması bir daha sübut edir ki, onlar insani keyfiyyətlərdən məhrum millətdir:** "Qarabağ torpağı qədim dövrlərdən etibarən görkəmli simalar yetişdirib. Həmin dahilərin göstərdiyi səylər nəticəsində dini və milli tariximizin möhtəşəm əsərləri, ibadətgahlar və məscidlər inşa edilib. Xalqımız ən qədim zamanlardan bu günə kimi mədəniyyətinə və tarixinə çox sıx bağlı olub. Tariximizə, milli mədəniyyətimizə göstərilən diqqət də buna ən gözəl sübutdur. Bizdən fərqli olaraq mənfur düşmən xalqımızın izlərini həmin torpaqlardan birdəfəlik silmək, tarixin izlərini yox etmək məqsədilə vandalizm həyata keçirib. Qarabağ bölgəsində erməni təcavüzkarlarının həyata keçirdiyi amansız cinayətlər, nümayiş etdirdikləri barbarlıq onların necə millət olduqlarını yenidən göz önünə sərir".

**Hacı Atif bəy inanır ki, qısa zaman ərzində həmin torpaqlar yenidən öz abadlığına qovuşacaq:** "Hazırda düşmən işğalından azad olunan ərazilərdə yenidənqurma və bərpa işləri aparılır. Prezidentimizin bu sahəyə göstərdiyi xüsusi diqqət və həssaslıq təqdirəlayiqdir. Milli-tarixi dəyərlərimizin kökləri sayılan dini abidələrimizin bərpası yönündə bir sıra tədbirlər həyata keçirilməsi çox vacib addımlardandır. Bir xalqın özünə qayıtması üçün ən önəmli faktorlardan birincisi milli və mənəvi dəyərlərin təməlində duran dini-tarixi abidələri bərpa etmək, dirçəltməkdir. Cənab İlham Əliyevin həmin sahəyə göstərdiyi qayğı Azərbaycan xalqının öz tarixi köklərinə necə bağlı olduğunun bariz nümunəsidir. Biz inanırıq ki, tez bir zamanda əzəli və əbədi torpağımız olan Qarabağ dövlətimizin gördüyü yenidənqurma və abadlıq işləri sayəsində əvvəlki halına qayıdacaq".

**Aytac Ali**

## Rüstəm Behrudi də alqışladı

### Şuşanın türk dünyasının mədəni paytaxtı olması türk xalqlarının yaxınlaşmasına kömək edəcək



**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Baş katibi Bağdad Amreyev Prezident İlham Əliyev tərəfindən videoformatda görüşü zamanı Şuşa ilə bağlı mühüm məqamlara toxunub.**

O deyib ki, hər il türk dünyasının mədəni paytaxtı seçilir. 2022-ci ildə Şuşanın belə paytaxt elan olunmasını və mədəni xarakterli çoxlu tədbirlər keçirilməsini təklif edirik: "Bunlar Şuşanın bütün türk və islam dünyası üçün böyük mədəni əhəmiyyətini vurğulayar. Dünən biz bu məsələni Xarici işlər naziri Ceyhun Bayramovla da müzakirə etdik. Siz icazə versəniz, biz bu işə başlayarıq, 2022-ci ildə Şuşada 20-yə yaxın mədəni tədbir keçirərik. Əminik ki, o vaxta qədər Şuşa bərpa olunacaq, öz əvvəlki simasını alacaq. Biz həmişə Sizin yanınızda olmuşuq və həmişə Sizin yanınızda olacağıq".

**Baş katibin fikirlərini "Şərq"ə dəyərləndirən şair Rüstəm Behrudi əvvəlcə Şuşanın əsarətdən qurtulması münasibətilə xalqımızı təbrik edib:** "Bir neçə paytaxtı olan ölkələr mövcuddur. Məsələn, Cənubi Afrikanın üç paytaxtı var: mənəvi, iqtisadi və siyasi. Elə Azərbaycanın da mədəni paytaxtı Şuşadır. Şuşa bizim mənəvi aləmimizin mərkəzidir. Bakı dövlətin, ruhumuzun paytaxtı isə Şuşadır. İndi isə ruhumuz da bizdədir. Ona görə açıqlama da yerinə düşüb. Türkçülük, turançılıq baxımından Şuşanın türk dünyasının mədəni paytaxtı olması böyük düşüncə və iradə tələb edir. Çox sevinirəm. Türk xalqlarının daha da bir-birinə yaxınlaşmasına kömək edəcək. Şuşanın türk dünyasının mədəni paytaxtı elan olunması ideyasını alqışlayıram".

**Samirə Ərəbova**

# Şəffaflıq əsas şərtdir

## Fürsətcil insanlar qazilərin, yaralıların adından istifadə edirlər

*Qazilər, yaralı əsgərlər haqqında məlumatlar, fotolar bəzən sosial şəbəkələrdə paylaşılır və onların köməyə ehtiyacları olduğu bildirilir. Bəzən bu şəxslərə aidiyyəti olmayan adamlar da onların adından müraciət edir, fürsətdən istifadə edib açılmış bank hesabına pul köçürülməsini istəyirlər. Bir növ internet möhtəkirliyi, internet dələduzluğu edirlər.*

Sonrasa məlum olur ki, yaralı əsgər heç vaxt belə paylaşım etməyib, paylaşımdan xəbəri belə yoxdur. İlk növbədə bu, qazi qüruruna xələl gətirir. İkinci tərəfdən də insanların əsgərimizə qazilərə həssaslığından suiistifadə hallarına yol açır. Azərbaycan dövlətinin əsgərinə olan qayğısı məlum həqiqətdir. Bundan əlavə şəhid ailələrinə, qazilərə, ehtiyacı olan əsgər ailələrinə yardım üçün dövlət səviyyəsində "Yaşat" Fondu yaradılıb. Dövlətini, onun əsgərini sevən, şəhidləri ilə qürur duyan sıravi vətəndaşlar da, şirkətlər, müəssisələr də Fond yaranan gündən ora ianələr, köçürmələr edirlər. Bəlkə də diqqətdən kənarda qalan kimlərsə var deyə, sosial şəbəkələr üzərindən müraciətlər meydana çıxır? Ayrı-ayrı şəxslərin internet üzərindən yardım istəməsi nə dərəcədə düzgündür? İstisna edilmir ki, kiminsə həqiqətən yardıma ehtiyacı olsun, lakin belə halların dövlət səviyyəsində müəyyənəşdirilməsi daha düzgün olar, bizcə.

**Qarabağ Qaziləri Birliyinin mətbuat xidmətinin rəhbəri, Qarabağ müharibəsinin döyüşçüsü, qazi Rey Kərimoğlu "Şərq"ə açıqlamasında qayğıya ehtiyacı olan döyüşçülərin müəyyənləşdirilməsində problemlər yaşandığını dedi:**

- Bank hesablarının açılması, yaxşıdı. Həqiqətən qayğıya ehtiyacı olan döyüşçülər var. Lakin onları müəyyənləşdirmək, dəstək olmaq, yardım göstərmək məsələsində şəffaflığı təmin etmək çətin prosesdir. Sosial şəbəkələrdə biz qazilərin iştirakı ilə xüsusi qruplar yaradılıb, o qruplarda da fondlar təşkil edilib, ehtiyacı olanlar həmin qruplara bank kartlarının nömrələrini atırlar. Məsələn, belə qrupların ikisində mən varam. Kimsə kartını atır ki, bura yardım edin. Bacardıqca edirik, ətrafımızda olan dostları, tanışları da buna cəlb edirik. Başqa yol yoxdur, kömək etməliyik. Edirik də. Həm də çalışırıq, şəffaflığı təmin edək. Amma həmişə bu, mümkün olmur. Çünki qruplara müraciət edənləri şəxsən tanımırıq. Onların həqiqətən müharibə iştirakçısı olub-olmadıqlarını da bəzən dəqiqləşdirə bilmirik. Çünki belə bir sistem yoxdur. Biz birliyimizin üzvlərini tanıyırıq, döyüş yollarına bələdik. Amma başqaları haqqında məlumatımız olmur. Bunu müəyyənləşdirmək də vaxt aparır. Bir neçə il əvvəl Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qazilər, veteranlar, şəhid ailələri ilə bağlı siyahı hazırlamışdı. O siyahıya əsasən müəyyənləşdirmək olurdu, kimkimdir. Amma sonra belə tövsiyə edildi ki, bu siyahılar insan hüquqlarına ziddir. Hesab edirik ki, buna bənzər bir sistem yaradılmalıdır. Dövlət şəhid ailəsi, qazi, veteranlara bağlı elektron siyahı tərtib etməli və onu müəyyən mənbələrə açıq etməlidir ki, məsələn, Qarabağ Qaziləri Birliyi yardım göstərmək istədiyi şəxsləri dəqiqləşdirə bilsin. Yoxsa, bu məsələdə şəffaflığı təmin etmək çətin olacaq. Fürsətcil insanlar yaranmış vəziyyətdən istifadə edəcəklər. Yardım lazım olan ünvana deyil, dələduzların əlinə keçəcək. Burda əsgər şərəfi, qazi qüruru da əsas məsələdi. Hər yoldan ötən qazinin, əsgərin adından müraciət etməməlidir. Bunun üçün də şəffaflıq əsas şərtdir. Bir də ki, bu həm də vicdan məsələsidir. Kimin üçünsə müraciət edən adamın niyyəti saf deyilsə, bunda nəsə başqa məqsəd, qazanc güdürsə, vicdansız, şərəfsizdi.



Yardımlar lazımi ünvana deyil, dələduzların əlinə keçir

İnsanlar belə məsələlərdə həssasdılar, əsgər, şəhid ailəsi, qazi adını görüb bacardıqca kömək edirlər. O yardımı, pulu ünvanına çatdırmaq qalır o adamın insafına, vicdanına. Biz dələduzluğun qarşısını almaq üçün özümüz yaratdığımız qrupda votsap vasitəsilə bir-birimizlə yazışırıq, yardım olunan şəxsin kartına pul köçürüləndə çeki də votsapa yerləşdiririk və pulun o adama çatıb-çatmadığını şəxsin özündən öyrənirik. Başqa bir qrupumuz var, harda ki yardım olunacaq, yardıma ehtiyacı olanlar barədə məlumatlar var. Bu qaydayla şəffaflığı təmin edirik.

**R.Kərimoğlu "Yaşat" Fondunun şəhid ailələri, qazilərə yardım məsələsində çalışdığını vurğuladı:**

- Ən doğrusu yardımların dövlət səviyyəsində edilməsidir. "Yaşat" Fondu şəhid ailələrinin statistikasını başa çatdırıb, hazırda qazilərin, yaralıların statistikası aparılır. Onlar da müəyyənləşdikdən sonra əlillik statusu almayanlara bağlı çalışmalara başlanacaq. Bilirik ki, bu məsələdə problemlər yaranacaq. Ümid edək ki, o problemlər də həllini tapar. Bizim elə imkanımız yoxdur ki, müraciət edənlərin kimliyini müəyyənləşdirək. Bu, dövlət səviyyəsində edilməlidir. Şəhidlər, qazilər, veteranlarla bağlı dəqiq siyahı olmalıdır.

**Məlahət Rzayeva**

# Şagirdlərin qiymətləndirilməsi vacibdir

## Ancaq pandemiya və Vətən müharibəsi dövrü mütləq nəzərə alınmalıdır

Şagirdlərin məktəbdaxili qiymətləndirilməsinə başlanılıb. Və ilk gündən görünür ki, şagirdlər də, valideynlər də narazıdır. "Nə dərs keçilib ki, qiymətləndirmə də aparılır?" deyənlər, qiymətləndirmənin gedişindən narazı qalanlar da var. Məlumdur ki, 2020-2021-ci tədris ili əyani formada başlasa da, yoluxma səbəbindən qısa zamanda təkrar onlayn tədrisə keçildi.



Onlayn tədrisin çətinlikləri, dərslərə qoşulmada texniki problemlərsə bəllidir. Belə vəziyyət özünü qiymətləndirmədə necə göstərəcək? Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu xüsusi karantin rejimi dövründə məktəbdaxili qiymətləndirmənin müvəqqəti qaydaları barədə danışıb. Şöbə müdiri "biz tələbələrin biliyini yoxlayarkən süni qiymətləndirmə aparmaq istəmirik" söyləyib. Hazırda təhsilin standartlar üzərində təşkil edildiyini nəzərə çatdıran V.Yaqublu deyib ki, tədris distant formada keçirilibsə, şagirdlərin bilikləri də distant formada öyrənilməlidir: "Biz bilirik ki, bu müddətdə şagirdlərdə güclü şəkildə irəliləmə olmayıb. Amma bu qiymətləndirmə mövcud öyrənmənin nə vəziyyətdə olduğunu bilmək, gələcək istiqamətləri müəyyən etmək üçün vacibdir". Şöbə müdiri bildirib ki, virtual dərslərə qoşula bilməyən şagirdlər də minimal zəruri biliklərini nümayiş etdirmək üçün qiymətləndirmədə iştirak etməlidirlər. Onun sözlərinə görə, qiymətləndirmədən bütün şagirdlər keçməlidirlər: "İnternetə çıxışı olmayan şagirdlər üçün teledərslər yayımlanır: "Bununla bağlı dəfələrlə məlumatlandırma kampaniyası aparmışıq ki, bu imkandan istifadə edilsin. Teledərslər vasitəsilə uşaqlar güclü olmasa da, zəruri bilikləri əldə edə bilərlər. 21-ci əsr nəsli üçün özünöyrənmə çox vacibdir".

Yarım illik qiymətlərindən narazı qalan şagirdlərsə apelyasiyaya müraciət edib növbəti ay ərzində əyani formada qiymətləndirmədə iştirak edə bilərlər. Şifahi sorğusual distant təhsil zamanı ən optimal yoldur. V.Yaqublu qeyd edib ki, qiymətləndirmədə veriləcək suallar bu tədris ilinin 1-ci yarım ili üzrə mövzuları əhatə etməlidir. Şagirdlərə verilən sualları hər bir fənn müəllimi özü müəyyən etməlidir.

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, tədrisin birinci yarımillik qiymətləndirilməsində pandemiya və Vətən müharibəsi dövrü mütləq nəzərə alınmalıdır:**

- Bilirsiniz ki, pandemiya səbəbindən təhsilin distant formaya keçilməsi şagirdlər üçün bir sıra çətinliklər yaratdı. Planşeti, kompüteri olmayanlar, internet paketi əldə edə bilməyənlər dərslərə onlayn qoşula bilmədilər. Eyni zamanda ölkədə ilk dəfəydi təhsilin distant forması tətbiq edilirdi, qiymətləndirmə standartları, ölçmə əməliyyatı yox idi. Bu səbəblərdən 2019-2020-ci tədris ilinin ikinci yarısının yekunu olaraq qiymətəndirmə ümumiyyətlə keçirilmədi. 2020-2021-ci tədris ilinin birinci yarısı isə zəfərlə başa çatan Vətən müharibəsi ilə yadda qaldı. Bu dəfə şagirdlər internetə tətbiq edilən zəruri məhdudiyyətlər səbəbindən dərslərə normal qoşula bilmədilər. Göstərilən səbəblər şagirdlərin zəruri biliklər əldə etməsinə mənfi təsir edib. Bunlar indiki qiymətləndirmədə mütləq nəzərə alınmalıdır. Hansı mövzular keçilməyibsə, onlar qiymətləndirməyə daxil edilməməlidir. Amma qiymətləndirmə vacibdir. Bəzən valideynlər, şagirdlər biliklərin əldə olunmasında nümayiş etdirdikləri məsuliyyətsizliyi də pandemiyaya "bağlayırlar". Hesab edirəm ki, qiymətləndirmənin aparılması şagirdlərin də, valideynlərin də məsuliyyətini artıracaq. Qarşıdakı 2-ci yarımilin mövzularını daha yaxşı mənimsəməyə səy göstərəcəklər. Qiymətləndirmənin necə aparılmasına gəlincə, hesab edirəm ki, burada 3 əsas şərt var. Birincisi, test tapşırıqları ilə summativ yoxlamanın aparılmasıdır. Burada müəllim maksimum 20, minimum 10 sualın 100 ballıq şkala ilə qiymətəndirilməsini aparmalıdır. İkinci, şifahi imtahan götürülməsidir. Burada isə müəllim mütləq qaydada "Maykrosoft Tims" proqramı – Yadda saxla proqramından istifadə etməlidir ki, əgər şagird qiymətləndirmədən narazı qalarsa, müəllim imtahanın gedişinin videosunu təkrar göstərməklə qiymətləndirmənin obyektiv olub-olmadığını nümayiş etdirməlidir. Üçüncü şərtsə, qiymətləndirmədə iştirak edə bilməyən şagirdlərin təkrar qiymətləndirməyə cəlb edilməsidir.

**Məlahət Rzayeva**



# Bilgiləndirmə etiketinə baxmaq lazımdır

## Saç şampunu seçərkən bəzi amillərə mütləq diqqət edin

Saçlar yalnız görünüş deyil, həm də sağlamlığın bir göstəricisidir. Müntəzəm və keyfiyyətli saç baxımı olmadan sağlam və parlaq saçlara sahib olmaq qeyri-mümkündür. Şampun saçlara qulluqda əsas vəzifəsini yerinə yetirir, sadəcə saçları deyil, baş dərisini də təmizləyir. Lakin şampunun düzgün seçilməsi vacib məsələdir. Bəs, bunun üçün nələrə fikir vermək lazımdır?

**Sualımızı cavablandıran həkim-trixoloq Aytəkin Quliyeva "Şərq"ə bildirib ki, şampunların PH dəyərini bilmək çox zəruridir:**

"PH keyfiyyəti müəyyən etmək üçün şampunun qabındakı bilgiləndirmə etiketinə baxmaq lazımdır. PH göstərilmədiyi təqdirdə bunu necə təyin etmək olar? Təəssüf ki, çoxları laboratoriya təcrübələri olmadığına görə şampun seçimində yalnız "prob" metodundan istifadə edir.

Saçlar daranandan sonra sərt və kobud olarsa, yaxşı daranmazsa, deməli çox qələvi şampun seçimi edilib".

**Həkim vurğulayıb ki, saçlar tez kirlənib, yağlanırsa, şampun çox turş mühitlidir:**

"PH-ı 7-dən aşağı olarsa, turşu mühitli şampundur, 7-dən yuxarı PH isə qələvi şampundur. Quru, zəifləmiş və zədələnmiş, rənglənmiş saçlar üçün turş mühitli, yeni yumşaq şampunlar tövsiyə olunur. Yağlı saçlar üçün neytral və ya qələvi tarazlığı olan (PH 6-8) şampunlardan istifadə etmək tövsiyə olunur".

**Trixoloq sonda qeyd edib ki, uşaqlar üçün pH 6-8 olan və yalnız neytral şampunları seçmək lazımdır:**

"Bəzi insanlar saçını sabunla yuyur, sabunun saçını daha həcmli və dolğun göstərdiyini söyləyirlər. PH-ı yüksək təmizləyicilər saçın üst qismindəki qapaqları açaraq saçı daha qabarıq göstərir. Ancaq sağlıqlı saçın qapaqları qapalı olmalıdır. Açıq qapaqlar saçın xarici faktorlara qarşı dayanıqlığının itməsinə səbəb olur və saçı daha mat və solğun göstərir".

**Yeganə Bayramova**

# Yeni bahalaşma dalğası gəlir

Son günlər bazar və marketlərdə qiymət artımı müşahidə olunur. Bahalaşma özünü əsasən ərzaq və kənd təsərrüfatı məhsullarında göstərir. Əvvəllər 65-70 qəpiyə satılan yerli kartof 80 qəpiyə, soğan isə 85-90 qəpiyə qədər bahalaşıb. Bəzi yerlərdə soğanın qiyməti 1 manata qədər yüksəlib. Unun da qiyməti artıb. Əvvəllər 50 kq-lıq un kisəsi 27 manata satılırdısa, indi qiymət 32-33 manat olub. Bu səbəbdən bəzi marketlərdə çörəyin də qiyməti bahalaşıb.



**"Novruz bayramına qədər qiymətlərin sabitləşməsini gözləmək bir az çətindir"**

Əvvəllər 50 qəpiyə satılan çörək indi 53-55 qəpiyə satılır. Supermatketlərdə şəhər yumurtası 18, kənd yumurtası isə 30-35 qəpiyə bazarlanır.

Digər gündəlik tələbat məhsullarında, o cümlədən şəkərin və qəndin qiymətində də artım var. 90 qəpiyə satılan şəkər tozunun 1 kiloqramı indi 1 manatdır. Məlumdur ki, yanvarın 5-dən Aİ-92 markalı benzininin və dizelin qiymətləri ilə bağlı yeni tariflər tətbiq edildi. Benzin 90 qəpikdən 1 manata, dizel isə 60 qəpikdən 80 qəpiyə qalxdı.

Bu dəyişiklikdən sui-istifadəyə və əsassız qiymət artımına yol verilməsinin vaxtında müəyyənləşdirilməsi və qarşısının alınması məqsədi ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən xəbərdarlıq edildi. Rəsmi qurum bəyan etdi ki, nəzarət tədbirləri zamanı qanun pozuntusu halları aşkar edilərsə, qanunvericilikdə nəzərdə tutulmuş ciddi məsuliyyət tədbirləri görüləcək. Görünən odur ki, edilən xəbərdarlıqların hər hansı bir təsiri yoxdur. **İqtisadçı-ekspert Natiq Cəfərli isə "Şərq"ə açıqlamasında ərzaq məhsullarındakı kəskin qiymət artımını son zamanlar qəbul edilən qərarlara bağlayır:**

"Dizel yanacağının bahalaşması logistikanı, yəni daşınma xərclərini artırıb. Ona görə də qiymət artımını müşahidə edirik. Təəssüf ki, yeni mövsüm başlayanda kənd təsərrüfatı məhsullarında da bahalaşmanın növbəti dalğasını görəcəyik. Çünki kənd təsərrüfatı məhsullarının istehsalında maya dəyərinin 30 faizdən çoxunu dizel yanacağı təşkil edir. Maya dəyəri artdıqca, təbii ki, bahalaşmanı da müşahidə edəcəyik". İqtisadçının sözlərinə görə, Novruz bayramına qədər qiymətlərin sabitləşməsini gözləmək bir az çətindir: "Bayrama qədər məhsulların bahalaşmasını görəcəyik. Təəssüf ki, yeni dizel qiymətləri və daşınma xərcləri qiymətlərdə öz əksini tam tapana qədər ərzaq məhsullarında artım olacaq. Novruz bayramından sonra da yerli kənd təsərrüfatı məhsullarında bahalaşmanın şahidi olacağıq".

**Yeganə Bayramova**

# “Şərait olmalıdır ki, insanlar elektromobillərə keçid etsin”

## Fərid Hüseynov: “Ölkəmizdə sürətli şəkildə şarj stansiyaları tikilməli, infrastruktur qurulmalı, şəbəkə genişləndirilməlidir”



Son zamanlar işləyən nəqliyyat vasitələrinin ekologiyaya vurduğu zərəri azaltmaq məqsədi ilə alternativ olaraq elektromobillərin sayı çoxalır. Elektromobillər əsasən inkişaf etmiş və daha sivil toplumların formalaşdığı ölkələrdə sürətlə artır. Buna misal olaraq ABŞ, Norveç, Niderland, İngiltərə, Fransa, Yaponiya, Sinqapur kimi ölkələri misal çəkmək olar. Azərbaycanda da son illər bu avtomobillərə maraq artmaqdadır. Lakin bir çox problemlər hələ də qalmaqdadır. Bununla bağlı avtomobil üzrə ekspert Fərid Hüseynov "Şərq"in suallarını cavablandırıb. Ekspert maraqlı məqamlara toxunub.

**- Fərid bəy, sizcə, elektromobilləri sürməyə dəyərmi?**

- Əlbəttə. Burada bir neçə faktor rol oynayır. Avtomobilin alış qiymətini ilkin olaraq nəzərə almasaq, o zaman elektromobil istifadə olunduğu müddətdə sürücünün avtomobil üçün düşündüyü xərclərini azaldır. Belə ki, elektromobillərdə ənənəvi avtomobillərdə olduğu qədər dövri baxım xərcləri yoxdur, yəni ”yağ dəyişmə” tipli. Başqa bir səbəb EM-lərin daha tez sürətlənməsidir ki, bir çox sürücü bu cəhəti bəyənir. Yanacaq xərci də ciddi şəkildə azalmış olur. Bunlar alıcılıq üçün təkan verəcək faktorlardır. Bunların hamısını bir kənara qoysaq, onda fərqli bir səbəb gələcəkdə hamımızın EM sürəcəyimizə zəmin yaradır. Bu da ekoloji faktordur. EM-lər avtosənayenin gələcəyidir, bu qaçılmazdır və sürətlə aydınlanan reallıqdır. Bu gün az qala hər avtoistehsalçının elektriklə işləyən modeli var və model cərgələrini sürətlə elektrikləşdirirlər, buna məcburdurlar. Əvvəla İEÖ-lərin qanunları, sonra isə bazar bunu tələb edir. Kim sürətlə bu yeniliyə uyğunlaşa bilməsə, bazar payını itirmə riski var. Məsələn, Avropa Birliyi daxilində istehsalçıların cərimələnmə riski də var. 2019-cu ilin yanvar ayından AB daxilində istehsalçılara belə bir tələb qoyulub ki, il ərzində satılan avtomobillərin ortalama qaz tullantısı 100 km-ə 95 qramı keçməməlidir. Əgər keçərsə, əlavə hər qrama görə 95 avro cərimə ödəyəcək. İlk baxışda ciddi rəqəmə oxşamır, amma əslində böyük rəqəmdir. ”Porsche” kimi perfomans avtomobilləri istehsalçısı belə hər modelini sürətlə hibridləşdirdi və tam elektrik modeli satışa çıxardı. Yəni EM-lər bu gün zövq və seçim məsələsi ola bilər, amma sabah məcburiyyət olacaq.

**- Bu avtomobillərin ölkəyə gətirilməsi üçün əsas çətinliklər nələrdir?**

- Bu sualın cavabını vermək üçün bir neçə il geriyə gedib, yəni 2019-cu ilə qədərki gömrük rüsumlarımıza baxmalıyıq. 2019-cu ilə qədər EM-lər üçün ənənəvi avtomobillər kimi həm idxal rüsumu, həm aksiz vergisi, həm ƏDV ödənməli idi və bu da qiyməti şişirdirdi. Ümumiyyətlə, aksiz vergisini əslində mühərriki olmayan (EM-lərdə enerjini təkərlərə ötürən konverter olur, neçəsə litrlik DYM yoxdur, aksiz vergisi DYM həcminə görə hesablanır) avtomobil üçün necə hesablayırdılar, necə təyin edirdilər kimi suallar var. Hökumətin yeni qərarı ilə 2019-cu il 1 yanvar tarixindən gətirilən EM-lər üçün aksiz vergisi və ƏDV ödənmir, avtomobil dəyərinin 15 faizi idxal rüsumu olaraq ödənir və gömrükdə rəsmiləşdirilir. Amma bu qərar ölkədə EM-ləri artırmadı, məşhurlaşdırmadı.



**- Niyə?**

- Əvvəla ona görə ki, bu gün EM-lərin alışı bahadır. Çünki litium-ion batareyaları baha başa gəlir. Texnologiya kütləviləşdikcə qiymətlər aşağı düşəcək. Digər səbəb isə Azərbaycanda EM-ləri şarj etmək üçün lazımi infrastrukturun olmamasıdır. Əgər vətəndaş EM alsa belə onu lazım olduğu vaxtda və yerdə şarj etmək imkanı yoxdur. Şarj şəbəkəsi Bakıda 10-a qədər yerdə var, bu özü çox azdır. EM idarə edən vətəndaş Bakıda birtəhər şarj stansiyası tapsa da, şəhərdən kənara çıxa bilmir. Çünki heç yerdə stansiyalar yoxdur. Bu da avtomobilin qiymətindən də çox ciddi məsələdir. Hökumətin bu sahədə hansısa planı var. Əlavə olaraq SOCAR elan edib ki, ölkə üzrə öz YDM-lərində elektrik şarj stansiyaları quracaq. Amma bu proses çox ləng gedir və təbii olaraq ölkədə EM-ləri heç çür təşviq edə bilmir. Daha ciddi təşviqat aparılması lazımdır. Amma hələ ki, ciddi boşluqlar var. Bu günləri benzinin qiyməti qalxır, amma vətəndaş əvvəl qiymətə görə, sonra isə şarj edə bilməməyə görə keçid etmir və ciddi tərəddüd edir.

**- Avropada elektromobilləşmə prosesi sürətlə gedir. Bəs hansı səbəbdən ölkəmizdə bu proses ləng gedir?**

- Alış qiyməti və ölkəmizdə infrastruktur kasadlığı bu gün üçün əsas səbəblərdəndir. Məsələn, vətəndaş Bakıda yaşayır, valideynləri Gəncədə. Vətəndaş ayda bir dəfə Gəncəyə səfər edir. Bakıda tam şarj etdi, yola çıxdı. Uzaq yolda 100 km limitlə sürdüyü üçün şarj ciddi azaldı, yolun yarısında şarj stansiyası yoxdur. Şarj tam bitsə, bu zaman avtomobil yolda sönüb qalacaq. Bunu bilən heç bir vətəndaşı EM almağa sövq etmək olmaz. Buna görə də vətəndaş üçün əvvəlcə şərait yaradılmalıdır.

**- Müsbət nəticələrin olması üçün hansı arzuolunan addımların olması zəruridir?**

- Əvvəl hibridlərə gömrük güzəşti tətbiq edilməlidir ki, vətəndaşlar ənənəvi avtomobillərdən ”yarı elektriklərə” keçidə başlasın. Sürüb görsün ki, sistem necə işləyir, müsbəti-mənfisi nədir. Yəni insanlara yoxlamaq fürsətini qazandırmaq lazımdır. Güzəştdən sonra isə EM almaq istəyənlər üçün subsidiyalar tətbiq edilməlidir. Subsidiyasız müsbət hansısa nəticəni gözləmək sadəlövhlük olar. Həm alış üçün subsidiya, həm də istifadə müddətinin ilk bir neçə ilində bu və ya digər rüsum-vergidən azadolmalar tətbiq edilməlidir. Məsələn, EM alan şəxs həm dövlətdən alış üçün subsidiya alır, həm yol vergisindən, həm də avtomobilin qeydiyyat rüsumlarından azad edilir. Bu tip paketlər olmadan Azərbaycan və onun kimi ölkələrin çoxunda ciddi elektrikləşməyə keçid görə bilməyəcəyik. Biz Avropa Birliyi deyilik ki, ciddi və işlək qanunlar qəbul edək, istehsalçıları cərimələyək ki, siz bizim havamızı çirkləndirirsiniz. Və atmosferi ciddi şəkildə çirkləndirən avtomobillərə yüksək məbləğli cərimələr tətbiq edilsin. Bu günləri ölkədə saysız-hesabsız köhnə dizel avtomobilləri var. Təəssüf ki, Avropada 3 il əvvəl qəbul edilən yeni sərt qərarlardan sonra Birlik ərazisindən çölə ”atılan” dizelləri biz daşıyıb ölkəmizə gətirdik. Bir qurum belə buna qarşı çıxmadı, qabağını almadı. Yəni Azərbaycan Avropanın ”çox çirkli” hesab etdiyi, ömrü az qala bitmiş maşınları qəbul etdi öz ərazisinə, ”metallomu” yığdıq bura. Ölkəmizdə sürətli şəkildə şarj stansiyaları tikilməli, infrastruktur qurulmalı, şəbəkə genişləndirilməlidir. Misal olaraq, Almaniya kimi ölkə 2020-ci ilin sonuna qədər ölkə ərazisində dövlət hesabına 40 ədəd hidrogen yanacaqdoldurma məntəqəsi tikdi. Hidrogen də elektrik kimi avtomobillərdə alternativ yanacaq növüdür. Ciddi potensialı var. Bir neçə istehsalçı artıq 6-7 ildir ki, hidrogenlə işləyən modelləri İEÖ-lərdə satırlar. Yuxarıda adları çəkilən ölkələrin hamısında başqa maraqlı bir cəhət var: şarj stansiyaları təkcə dövlət tərəfindən deyil, həm də özəl şirkətlər, müxtəlif sahibkarlar tərəfindən qurulur. Məhz elə bu səbəbdən də şəbəkə sürətlə genişlənir, infrastruktur artıq var. Hesab edirəm ki, bizdə bunlar olmalıdır.

**Aynurə Pənahqızı**

# Afət Fərmanqızının təklifi zarafatdır

## Kəramət Böyükçöl onunla mahnı oxumaq fikrində deyil





**Bir neçə gün öncə müğənni Afət Fərmanqızı ”Şərq”ə açıqlamasında yazıçı Kəramət Böyükçöllə duet oxumaq istədiyini söyləyib. O, tanınmış yazara olan rəğbətini dilə gətirərək deyib ki, səsi varsa, onunla duet mahnı ifa edə bilər.**

Müğənninin sözləri sosial şəbəkə istifadəçiləri tərəfindən maraqla qarşılanıb. Kimi buna ironiya ilə yanaşıb, kimi də onların uğurlu iş ortaya qoya biləcəklərini iddia edib. **Biz də müğənninin təklifinə münasibət öyrənmək üçün K.Böyükçöllə əlaqə saxladıq. Yazıçı A.Fərmanqızına belə cavab verdi:** ”Afət xanım haqqımda gözəl fikirlər bildirib, amma mən müğənni deyiləm ki... Düzdür, Azərbaycanda müğənni olmaq səsin yaxşılığından asılı deyil. Məsələn, musiqi ilə, ritmlə ifa edirlər, səs arxa planda qalır. Buna baxmayaraq cəmiyyətin qarşısına müğənni kimi çıxmağım yaxşı bir işim, fəaliyyətim varsa, onların üstündən xətt çəkər. Bu məsələyə, mahnı oxumağa qeyri-ciddi baxıram. Düşünürəm ki, Afət xanımın təklifi də zarafatdır. Mən də zarafat kimi qəbul elədim. Ciddi yanaşmaq olmaz”.

**Samirə**

# Asif Məhərrəmov hövsələsizdir

## Afət Fərmanqızı: “Bu da meyxanaçıların xarakteridir, onlar dəqiq adamdılar”



**Afət Fərmanqızı son günlərin ən çox müzakirələrə səbəb olan, ”tənqid atəşi”nə tuş gələn müğənnilərindən biridir. O, Nəsiminin ”Sığmazam” qəzəlindən sonra Nizami yaradıcılığına müraciət etməsi ilə gündəmdədir. Həm sosial şəbəkələrdə, həm də efirlərdə fəal olan A.Fərmanqızının açıqlamaları da müzakirə predmetinə çevrilir.**

*”Şərq” belə situasiyada da şou-biznesin qalmaqallı müğənnisi Afət Fərmanıqızı ilə həmsöhbət olub. O, keçmiş duet ortağı meyxanaçı Asif Məhərrəmovdan danışıb:* ”Asiflə hazırda yaxın dostuq. Duetlərimizdən əlavə onun icazəsi ilə 6 mahnısını oxumuşam. İş birliyimizi dayandırmağın bir neçə səbəbi var. O zaman işlərim indiki kimi yaxşı deyildi. Həm də Asif bəyin xarakterində bəzi nüanslara toxunmaq istəyirəm. Məsələn, toya dəvət ediblər, saat 9-un yarısından 9-a qədər oxumalıyıq. Bir az gecikmə olub, 9-a 20 dəqiqə qalmış ifalara başlamışıq. Onda Asif bəy gileylənirdi ki, vaxtımdam gedir, oxuyub çıxmalıyam. Onu da başa düşürəm. Lakin toy məclisidir, kiminsə qohumu çox danışa bilir və sair problemlər olur. Bir sözlə, səbirsizdir. Dueti də oxuyanda gərək ondan xeyir götürəsən, qazanc əldə edəsən. Xalq tərəfindən sevilməkdən əlavə bu məsələlər də vacibdir. Sevildikdən, tanındıqdan sonra toya çağırırlar. Gördüm ki, Asif bəy də hövsələsizdir. Bu da meyxanaçıların xarakteridir, onlar dəqiq adamdılar. Digər tərəfdən də haqqını tələb edir. Amma məndən asılı deyil axı. Sonra şou-proqramlara gedirdik. Olurdu ki, bizi səhnəyə gec çağırırdılar, əvvəlcə böyük sənətkar oxuyub, əlavə mahnı ifa edib, yenə səbirsizlənirdi. Asifə bəraət də qazandırıram, amma elə məsələlər var ki, bizlik deyil. Müğənni o zaman uğur qazanır ki, həm mahnısı sevilsin, həm də məclisdəki adamlarla dil tapa bilsin. Onunla toya gedəndə bir balaca narahat olurdum ki, nə qədər vaxt deyilibsə, o qədər oxumalı olacağıq. Birdən vaxtdan az, ya çox olar, deyəcək ki, oxumuram. Çəkilişlərdə də elə edirdi. Texniki bir problem yaranırdı. Bizə deyiblər, çəkiliş 12-dən 2-yə qədərdir. Bu bir az deyiləndən çox çəkəndə Asif çıxıb gedirdi. O, dəqiq insandı. Biz də gərək getdiyimiz məclislərdə insanları, problemləri yola verməyi bacaraq. Başqa cür mümkün deyil”.

**Samirə Ərəbova**

# Türk psixoloqlar Bakıya kadr hazırlığı üçün gəliblər



## "Sadəcə, 20 nəfər psixoloq bu qədər qazi və şəhid ailələrinə psixoloji yardım göstərə bilməz"

Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşlarımızın psixoterapevtik müalicəsinin təşkili məqsədilə işlər davam etdirilir. Bu məqsədlə Türkiyədən dəvət olunan mütəxəssislər dünən ölkəmizə gəlib. Bununla bağlı Fövqəladə Hallar Nazirliyi məlumat yayıb.

FHN-in dəvəti ilə gələn peşəkar klinik-psixoloq və psixoterapevtlər Vətən müharibəsi nəticəsində psixi problemlər yaşayan vətəndaşların psixoloji reabilitasiyasının səmərəli təşkilinə yardımçı olacaqlar. Eyni zamanda, qazilərin, şəhid ailəsi üzvlərinin, terror aktlarından fiziki-mənəvi zərər görmüş insanların psixoterapevtik müalicəsinin təşkili məqsədilə işlər görüləcək. Həmin mütəxəssislərin FHN-in psixoloq-mütəxəssisləri ilə birgə fəaliyyət göstərməsi, həmçinin təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

**Psixoloq Elnur Rüstəmovun "Şərq"ə açıqlamasına görə, türkiyəli mütəxəssislərin birmənalı şəkildə faydası olacaq:** "Şübhəsiz ki, dəvət olunan psixoloqlar kifayət qədər təcrübəli olacaq. Sadəcə, 20 nəfər psixoloq bu qədər qazi və şəhid ailələrinə psixoloji yardım göstərə bilməz. Bu, fiziki olaraq mümkün deyil. Psixiatrik yardım olsa, hansısa problem yaşanmaz.

Çünki müayinələrdən sonra pasiyentə dərman yazılacaq, 1 ay qəbuldan sonra təkrar yoxlanış olacaq. Psixoloji yardım isə tamam başqadır.

"Psixoloji yardım haqqında" qanunda da qeyd olunub ki, ağırlıq dərəcəsindən asılı olaraq bir nəfər həftədə bir, iki, üç dəfə, ehtiyac olarsa, hər gün psixoloji yardım ala bilər.

Bir psixoloji seans müddəti isə 45 dəqiqədən 1 saata qədərdir. 20 mütəxəssis bir gündə 8 nəfəri qəbul etsə, bu şəxslər həftədə üç dəfə yardım alsalar, mütəxəssislər bir həftə ərzində 16 nəfəri qəbul etməli olur.

O zaman türkiyəli mütəxəssislər burada nə qədər qalacaqlar? Ona görə də düşünürəm ki, həmin mütəxəssislər ölkəmizə kadr hazırlamaq üçün gəliblər. Onlar təlim keçəcəklər və bu işləri türkiyəli mütəxəssislərin yetişdirdiyi kadrlar görəcək.

Ən düzgün yol budur. Çünki müharibədə iştirak edənlərdə posttravmatik stress pozuntusu var. Bu stress pozuntusunun fonunda depressiv hal və yuxu pozuntusu, özünə qapanma, ailə və cəmiyyətlə yaşadığı problemlər dayanır. Fikrimcə, türkiyəli mütəxəssislərin gəlməsi çox yaxşı haldır".

**E.Rüstəmov qeyd edib ki, Azərbaycanda da bu sahədə mütəxəssislər var. Onlar da işə cəlb olunsalar, kadrlar hazırlaya bilərlər:** "Ölkəmizdə 13 nəfər psixologiya üzrə professor var. Həmin professorları da işə cəlb etmək lazımdır. Onlar arasında akademik və praktik sistemdə çalışanlar var. Azərbaycanda həmçinin beş dənə psixologiya kafedrası mövcuddur.

Elmlər Akademiyasında "Sosial psixologiya" adlı şöbə var. Praktik sahədə də yaxşı mütəxəssislərimiz çoxdur.

Səhv etmirəmsə, türkiyəli mütəxəssisləri FHN dəvət edib. Amma Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də var. Həmçinin Təhsil Nazirliyini də bu işə cəlb etmək lazımdır.

Çünki məktəb psixoloqlarımız da yardım göstərə bilərlər. Müharibə iştirakçılarının hamısı paytaxtda yaşamır, ucqar kənddə qalanlar da çoxdur.

Onlara psixoloji dəstəyi kim göstərəcək? Məktəb psixoloqları kadrlar kimi hazırlansınlar və dəstək göstərsinlər. Çünki hər kənddə bir məktəb və hər məktəbdə bir psixoloq var".

**Yeganə Bayramova**

# Boşananların sayı artıb

Ötən ilin 11 ayı ərzində ölkəmizdə qeydə alınan nikah və boşanma hallarının sayı açıqlanıb. Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən keçən ilin yanvar-noyabr ayları üzrə 32 437 nikah və 13 439 boşanma halı qeydə alınıb.



## "Evində dinclik tapmayan şəxs ən asan olan yolu, problemlərdən qaçmağı seçir"

Əhalinin hər 1 000 nəfərinə düşən nikah sayı 3,5, boşanmaların sayı isə 1,5 olub. Rəqəmlərin sayına nəzər salanda ortaya çıxan mənzərə insanlara heç də xoş təsir bağışlamır. Geridə qoyduğumuz il ərzində boşananların sayı nikah bağlayanların yarısını təşkil edir. Gənc yaşlarında ailə quran insanlar qısa müddətdən sonra bir-biri ilə yola gedə bilmədiyindən çıxış yolunu evliliyə son qoymaqda görür. Əvvəlki dövrlərə nisbətən indi boşanmalar adi hal alıb. Zaman keçdikcə rəqəmlərin bu qədər artması artıq həyəcan təbili çalmağa əsas verir. Həmin problemin həllinə nail olmaq üçün əvvəlcə onun mənbəyinin nədən qaynaqlandığını araşdırmaq lazımdır.

**Boşanma hadisələrinin artması və onun səbəbləri ilə bağlı "Şərq"ə danışan sosioloq Lalə Mehralı deyib ki, bir il ərzində xalqımız çox ağır dönəmdən keçdiyi üçün bu müddət ərzində insanlar arasında boşanmaya səbəb olan amillərdən biri psixoloji problemlərdir:** "2020-ci ildə həm dünyada, həm də ölkəmizdə hökm sürən koronavirus pandemiyası öz mənfi təsirlərini bütün sahələrdə həddən artıq dərəcədə göstərib. Xalqımız bir il müddətində olduqca çətin dönəmdən keçib. Pandemiya səbəbilə bir çox insanlar öz iş yerlərini itiriblər. Bu da onların psixoloji durumuna bilavasitə təsir edib. Belə psixoloji gərginlik yaşadığımız bir zamanda boşanmaların qaçılmaz olacağı istisna edilmir. İnsanlar stres, əsəb və digər mənfi emosiyalarla maksimum dərəcədə yüklənib. Hər kəs adətən rahatlığı evdə axtarır. Evində dinclik tapmayan şəxs isə ən asan olan yolu, problemlərdən qaçmağı seçir. Heç kəs problemi həll etmək üçün qarşılıqlı söhbət etmir, yaxud terapiya keçmək istəmir. Nəticə etibarilə boşanan insanların sayı gündən-günə artır, çoxalır. Sosioloq digər səbəbi isə pandemiya dövründə vətəndaşların sosial problemlərinin artması ilə əlaqələndirib: "Pandemiya dövründə insanların əksəriyyəti sağlamlığını qorumaq üçün evdə qalsalar da, digərləri iş yerlərini itirdiyi üçün buna məcbur olub. Müəyyən işsizlik, maddi sıxıntılar səbəbindən insanlar arasında gərginlik halları daha da yüksəlib və dözümləri olduqca azalıb. Maddiyyatın səbəb olduğu problemlər də münasibətlərin qırılmasına gətirib çıxarır".

**Aytac Ali**

**Təbrik edirik!**



**Onurun 1 yaşı** tamam olması münasibətilə atası Nicat, anası Dilarə, babaları - Sadiq, Rövşən, nənələri - Rəsmiyyə, Sevda, əmisi Özal, dayısı Abbasəli, xalası Ayşə, xalası oğlu Hafiz təbrik edirlər. Ona cansağlığı, xoşbəxt gələcək arzulayırlar.

## "Tik-tok" İnstaqramdan öndədir

**İnstaqram sosial şəbəkəsinin baş icraçı direktoru Adam Mosseri "Tik-tok"la bağlı maraqlı açıqlama verib.**



Axşam.az xarici KİV-ə istinadən bildirir ki, Adam müsahibələrindən birində, hər iki sosial şəbəkəni müqayisə edərək "Tik-tok"un qısa video formatına görə İnstaqramdan üstün olduğunu deyib.

Mosseri bildirib ki, İnstaqramın məhs "TikTok"dan ilhamlanaraq "Reels" qısa müddətli video xidmətini təqdim etməsi də istifadəçiləri kifayət qədər qane etməyib.

Qeyd edək ki, İnstaqram "Tik-Tok"un rəqibi "Reels"i ötən ilin avqustunda istifadəçilərin ixtiyarına verib.

## "Nar" Qarabağ müharibəsi veteranları üçün xüsusi güzəştlər təqdim edir

**"Nar" Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş qəhrəmanlarımız üçün xüsusi güzəştlər təqdim edir.**

Xüsusi güzəştlərdən faydalanmaq üçün 21 yanvar tarixindən etibarən, "Nar" mərkəzlərindən birinə yaxınlaşaraq müvafiq sənədi təqdim etmək kifayətdir. Əlavə məlumatı mobil opertorun nar.az veb səhifəsindən əldə etmək mümkündür.

*Qeyd edək ki, "Nar" torpaqlarımızın azad edilməsi uğrunda hərbi əməliyyatların getdiyi dövrdə bir çox sosial əhəmiyyətli layihələr həyata keçirib, cəbhəyanı bölgələrdə yaşayan şəxslərə dəstək olub. Torpaqlarımızın azadlığı uğrunda vuruşmuş bütün müharibə iştirakçılarına hər zaman minnətdar olacağıq! #SalamQarabağ*

**Elan**

Ləğv olunmuş DT və XK Tovuz rayon şöbəsi tərəfindən Məmmədov Ələddin Baba oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair JN-565 saylı Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

İslamova Ruhangiz Əvvəl qızının adına Abşeron rayon Qobu qəsəbə Bələdiyyəsi 02.11.2007-ci il 21 saylı qərarı ilə verilmiş torpaq sahəsinə "Texnika Bank" ASC, Abşeron filialı tərəfindən verilmiş ödəniş qəbzi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 142



# Çinli alimlər bacardı

## Ömrü uzadan gen kəşf edildi

**Çinin paytaxtı Pekində bir qrup elm adamı, qocalmanı aradan qaldıran və ömrü uzadan gen kəşf ediblər.**

Axşam.az xarici KİV-ə istinadən bildirir ki, bu haqda "Science Translational Medicine" jurnalında xəbər yer alıb. Məlumatda yeni genin adının "kat7" olduğu qeyd edilib.

Gen ilk dəfə siçanlar üzərində təcrübədən keçirilib. 6-8 ay davam edən sınaqlardan sonra gəmiricilərin yaşının azladığı və ömrlərinin 25% artdığı müşahidə edilib.

Onlar belə genin kəşfinin ilk dəfədir reallaşdırıldığını deyiblər. Çinli alimlər bundan sonra primatlar üzərində də eyni təcrübənin həyata keçiriləcəyini bildirib.

# Heyvana işgəncə verdilər

## Ayaqlarını bağlayıb it sürüsünün qarşısına atıblar



**Dənizlinin Buldan rayonunda ova gedən bir qrup gənc çöl donuzuna işgəncə veriblər.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, əvvəlcə ovçular tüfənglə körpə donuzu vuraraq, onu yaralayıblar. Daha sonra arxa ayaqlarını bağlayaraq onu it sürüsünün qarşısına atıblar. Həmin hadisənin görüntüləri ovçuların biri tərəfindən qeydə alınıb. "Heyvana əzab verməyin, heyvanı öldürün" deyildiyi kadrlarda gənclərin donuzun köpəklər tərəfindən parçalanmasına gülərək baxdıqları müəyyənləşib. Həmin kadrlar sosial mediada paylaşıldıqdan sonra onların şəxsiyyəti müəyyənləşdirilərək cərimələniblər.

**Aynurə**

# 81 yaşlı qadın 36 yaşlı kişiyə ərə gedib

## Cütlük hazırda karantin səbəbindən ayrı ölkələrdə qalıblar



**81 yaşlı britaniyalı qadın 36 yaşlı kişiylə ailə qurub.**

Milli.Az xarici mətbuata istinadla xəbər verir ki, İngiltərənin Somerset qraflığında yaşayan 81 yaşlı Iris Jones özündən yaşca xeyli kiçik misirli kişiyə ərə gedib.

Bir müddət əvvəl ailə quran cütlük hazırda karantin səbəbindən ayrı ölkələrdə qalıblar. Belə ki, onun "toyboy" əri Mohamed Ahmed Ibriham uzun müddətdir ki, koronavirus səbəbindən Misiri tərk edə bilmir. Qadın bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edərək cavan əri üçün darıxdığını qeyd edib.

# Gündəm yaradıb

## Bayden yalnız bu məşhur aparıcını izləyir



**Co Bayden "Twitter"də Donald Trampdan sonra POTUS adlı rəsmi hesabın sahibi olub.**

Keçmiş ABŞ prezidenti Donald Trampın son həftələrdə dayandırılmış hesabı "Twitter" tərəfindən sıfırlanıb. Hesabı prezident olduqdan sonra istifadə etməyə başlayan Bayden bu günə qədər 12 nəfəri izləyib. Belə ki, izlənilən 12 nəfərdən biri də məşhur model və aparıcı Chrissy Teigendir. Tanınmış aparıcının prezident tərəfindən izlənilməsi gündəm yaradıb.



# 20 milyon insan izlədi

## Navalnı "bombanı partlatdı"



**Müalicə alaraq Almaniyadan Rusiyaya qayıdarkən tutulan və Kremli tez-tez tənqid edən müxalifət fəalı Aleksey Navalnı Vladimir Putinin 1 milyardlıq sarayının görüntülərini sosial şəbəkədə yayımlayıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, Navalnı Putinin Qara dəniz sahilində çoxlu dəbdəbəli imarətlərə sahib olduğunu deyib. O, Putinin sarayında lüks otaqlarla yanaşı striptiz klubunun, kazino və teatrın olduğunu da iddia edib. Qara Dənizin eksklüziv Gelencik buxtasında 100 milyard rubl *(1.35 milyard dollar)* dəyərində olan imarətlə bağlı videolar paylaşaraq Aleksey bunları deyib: "Burası Rusiyanın içində ayrı bir şəhər, hətta bir krallıqdır. Ərazidə kilsə, 2.500 kvadrat metrlik istixana, amfiteatr, bir neçə yaşayış binası və sahilə aparan xüsusi tunel var. Sarayın ərazisi 17 min 691 kv. metrdir. Orada ev teatrı, bar, kazino, oyun avtomatları olan lobbi, üzgüçülük hovuzu yerləşir. Bu, Rusiyada ən çox qorunan yerdir, dövlət içində yeni dövlətdir. Bu, Putinin böyük sirridir. Buranı yüzlərlə, hətta minlərlə insan qoruyur. Monakodan 39 dəfə böyük olan mülkiyyət elə tikilib ki, ona qurudan, dənizdən, yaxud havadan yaxınlaşmaq mümkün deyil. Ərazidə çalışan minlərlə işçi üstlərində kamerası olan adi mobil telefon da gəzdirə bilməz. Bura gələn bütün avtomobillər isə bir neçə məntəqədə yoxlamadan keçir".

*İki saatlıq "Youtube" yayımlanan araşdırmada Navalnı Putin sarayının 2005-2010-cu illərdə inşa edildiyini iddia edib. Bu videogörüntüləri 24 saat ərzində 20 milyondan çox insan izləyib. Rusiya lideri isə bu mülklə heç bir əlaqəsi olmadığını bildirib.*

***Aynurə***

# ABŞ-dakı xaos vəziyyəti də bilirmiş

## "Simpsons" proqnozları ilə dünyanı sarsıtmaqda davam edir



**Dünyaca məşhur cizgi filmi "Simpsons" davamlı proqnozları ilə dünyanı sarsıtmağa davam edir.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, əfsanəvi cizgi film pərəstişkarları "Simpsons" bu yaxınlarda ABŞ-dakı xaos vəziyyətini bildiyinə də diqqət çəkdi. Yanvarın 6-da Konqres binasına basqın edən Jake Angeli adlı şəxsin "Simpsonlar" serialında oxşar görünüşlü personajla böyük bənzərliyi hər kəsi şok edib. ABŞ prezidenti Jo Bayden və vitse-prezident Kamala Harrisin andiçmə mərasimini izləyən "Twitter" istifadəçiləri mərasim zamanı Harrisin geyindiyi geyim ilə Lisa Simpsonun geyimi arasında inanılmaz oxşarlıq olduğunu bildiriblər. Cizgi filminin 11-ci sezonunun 17-ci bölümündə Lisa Simpson Amerika Birləşmiş Ştatlarının prezidenti olaraq təsvir edilib. Həmin bölümdə podiumda çıxış edən Lisa boynuna ağ inci boyunbağı taxıb və əyninə bənövşəyi bir kostyum geyinib. Dünyanın qarşısında vitse-prezident vəzifəsində and içən Kamala Harris də Lizaya bənzər bənövşəyi gödəkçə və paltar geyinib. Hətta görünüşünü tamamlamaq üçün sadə bir inci boyunbağı da taxıb.

**Aynurə**

# Sayan koronavirusa yoluxub



**Aktrisa Başak Sayan koronavirusa yoluxmamaq üçün ailəsi ilə birlikdə Şilədə yaşayırdı.**

Türk mətbuatı bildirir ki, şəhər mühitindən uzaqlaşaraq özünü izolyasiya edən Sayan 10 gün əvvəl virusa yoluxduğunu, hazırda isə sağaldığını açıqlayıb:

"Əvvəl virusa yoluxduğumu anlamadım. Daha sonra simptomları ortaya çıxdı və yoluxduğumu gördüm. Test etdirdim pozitiv çıxdı. Demək olar ki, evdən çıxmırdım. Sadəcə, həftədə bir dəfə alış-verişə gedirdim. Hərdən də evə karqo gəlirdi. Virusa karqodan yoluxdum".